www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18-19 noyabr 2017-ci il Şənbə № 240 (6854) Qiymәti 60 qəpik

**Xəbər**

## Məktəbli qıza qarşı nalayiq hərəkətlər edən residivist tutuldu

yazısı səh.2-də

**Gündəm**

### Ərdoğan Putinlə Qarabağ müzakirəsinin ən vacib detalını açıqladı



Türkiyə prezidenti Putinin münaqişənin həllində ümidsiz olduğunu dedi; bəs o zaman Lavrov niyə gəlir?

yazısı səh.9-da

### Qarabağa görə yeni diplomatik həmlə: Kremlin növbəti imitasiyası, yoxsa?

yazısı səh.11-də

### "Gələn il Aİ ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqları bitirmək olar" - Mahmud Məmmədquliyev

yazısı səh.2-də

### Booking.com Azərbaycana qarşı təxribatlarını bərpa edib

yazısı səh.6-da

### "Qarabağı Rusiya alaraq sanki Ermənistana icarəyə verib" - Qabil Hüseynli

yazısı səh.4-də

### Yemək yeyərkən danışaq, yoxsa danışmayaq?

yazısı səh.14-də

### Bakının tikinti sektorunda canlanma

yazısı səh.7-də

### 13 rəqəmi - qorxunun, yoxsa uğurun müjdəçisi

yazısı səh.14-də

### Parlamentdə Xalq Cümhuriyyəti, Avropa Parlamenti və Rasim Balayev müzakirələri

yazısı səh.5-də

### Yarımçıq binadan mənzil alanlardan qiymətin tam tələb olunması qadağan edilir

yazısı səh.2-də

## İşğalçının blokadası güclənir: düşmən "izqoy"a çevrilir

# ERMƏNİSTANA "LAZURİT"Lİ ZƏRBƏ - BAKININ DAHA BİR BASQISI

Azərbaycan, Türkiyə və Gürcüstan daxil, 5 dövlət Ermənistandan yan keçəcək yeni nəqliyyat koridoru haqda razılığa gəldi; "İpək Yolu"nun davamı olacaq dəhliz düşməni daha təklənmiş duruma salacaq...



yazısı səh.8-də

## Müqəddəs torpaqlara ziyarət təşkil edən çetenin qara ticarəti

Azərbaycanlı zəvvarların başına açılan oyunlar, onların aldadılması haqda sensasion bilgilər; vətəndaşlarımızın ölüm və itkin düşmə halları artır; xarici xüsusi xidmət orqanlarının, kriminal qruplaşmaların yeminə çevrilənlərin sonrakı aqibəti necə olur...

yazısı səh.6-da



*Mirvari Qəhrəmanlı:*

### "Avropanın təzyiqləri İlqar Məmmədovun azadlığa çıxmasını uzadır"

yazısı səh.4-də



### Lavrov Bakıda kimlərlə görüşəcək - XİN-dən açıqlama

yazısı səh.8-də



### Eldar Mahmudovu bağlı qalan cinayətlərə görə də dindirəcəklər...

yazısı səh.3-də

# Eldar Mahmudovun evi qarşısında etiraz

**İllərdir sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovdan şikayətçi olan Yasamal rayon sakinləri Sevda Süleymanova və Elmidar İsmayılov bu dəfə də onun Badamdardakı evinə yollanıblar.**

Bu barədə cebhe.info-ya şikayətçilərin özləri məlumat verib.

Şikayətçilərin dediyinə görə, keçmiş nazirin evinə getmələrinə səbəb məsələlərində günahkar bildikləri Eldar Mahmudovla görüşmək və ona görə illərdir çəkdikləri əzabın hesabını sormaq olub: “Həyat yoldaşım Qüvvətəli Süleymanov Eldar Mahmudovun sağ əli Akif Mustafayevin sifarişilə 21.10. 2013-cü il tarixində qeyri-qanuni həbs olunub. 5 ildir ki, həyat yoldaşımın azad olunması üçün döymədiyim qapı, müraciət etmədiyim qurum qalmayıb. İndi Eldar Mahmudov cavab versin... Onunla görüşmək üçün bağ evinə getdik. İşığı yanırdı və evində adamlar var idi. Bağban Eldar Mahmudovun evdə olmadığını desə də, inandırıcı gəlmədi. Evinin ətrafında xeyli gözlədik ki, bəlkə evdən çıxar və ya ora gələr. Onu görə bilməsək də, tanış olması üçün qapıya məktub buraxdıq. Yoldaşım neçə illərdir ki, həbsdə əzab-əziyyət çəkir. Mən isə - Bakı Dövlət Universitetinin müəllimi - yaşaya bilmirəm...”




**Elmidar İsmayılovun iddiasına görə, Eldar Mahmudov onu və ailəsini məhv edib. İsmayılovlar ailəsi 3 ildir ki, çarəsiz durumda qalıb:** “Həyatımız məhv olub, çox çarəsiz durumdayıq. Bilmirik hara gedək. Hara müraciət ediriksə, deyirlər ki, gedin sifarişçinin özünə şikayətinizi deyin”.

Şikayətçilər Eldar Mahmudovla görüşə bilməsələr də, evinin qarşısında etirazlarını bildirib, əllərində “Eldar Mahmudov, məhv etdiyin həyatı geri qaytar!”, “Eldar Mahmudov ”kilkə"lər ərim Süleymanov Qüvvətəlini uddu. Onu həbsdən indi özün azad et!" yazılan plakatlar tutublar.



## Mehman Hüseynovun məhkəməsi başladı

**Noyabrın 16-da Bakı Apelyasiya Məhkəməsində bloger Mehman Hüseynovun apelyasiya şikayəti üzrə məhkəmə iclası keçirilib. Virtualaz.org saytının xəbərinə görə, prosesə hakim Əflatun Qasımov sədrlik edib.**

Prosesdə Mehman Hüseynov günahsız olduğunu deyib və hadisə ilə bağlı geniş ifadə verib.

Xüsusi ittihamçının nümayəndəsi çıxış edərək Mehman Hüseynovun apelyasiya şikayətinin təmin olunmamasını istəyib. Daha sonra sənədlərin tədqiqi mərhələsi başlanılıb. Məhkəmə prosesi sabah davam edəcək.

Xatırladaq ki, Nəsimi Rayon Polis İdarəsinin rəisi Musa Musayev M.Hüseynovu xüsusi ittiham qaydasında məhkəməyə verib. O, blogerin Cinayət Məcəlləsinin 147.2-ci (böhtan, ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə məsuliyyətə cəlb olunmasını və cəzalandırılmasını istəyib. Suraxanı Rayon Məhkəməsinin qərarı ilə M.Hüseynov 2 il müddətinə azadlıqdan məhrum edilib. O, məhkəmə zalında həbs olunub. Qərardan narazı qalan M.Hüseynov apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsi apellyasiya şikayəti təmin edilməyib.

Qeyd edək ki, sentyabrın 29-da Ali Məhkəmədə M.Hüseynovun kassasiya şikayətinə baxılıb. Ali Məhkəmənin qərarına əsasən, kassasiya şikayəti qismən təmin olunub. M.Hüseynov barəsində Bakı Apelyasiya Məhkəməsinin qərarı ləğv olunub. Cinayət işinin yenidən baxılması üçün Bakı Apelyasiya Məhkəməsinə qaytarılması qərara alınıb.

## 20 min 667 ipoteka krediti verilib

**“Azərbaycan İpoteka Fondu” ASC-nin (AİF) xətti ilə indiyədək verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.**

AİF-dən verilən məlumata görə, fondun xətti ilə 20 min 667 ipoteka krediti verilib. “Azərbaycan İpoteka Fondu”nun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 900 milyon 105 min 152 manatdan çoxdur.



## 200-dən çox şirkət nümayəndəsi Bakıda

**Noyabrın 16-da Azərbaycanda Amerika Ticarət Palatası (AmCham) tərəfindən öz üzvləri üçün SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Consun iştirakı ilə işgüzar görüş təşkil edilib.**

“AzərTAc” xəbər verir ki, tədbirdə diplomatik korpusun nümayəndələri də daxil olmaqla 200-dən çox şirkət nümayəndələri iştirak edib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Cons bildirib ki, Azərbaycanda 2 milyard ton neftin hasil olunması ölkə tarixində şanlı hadisədir.

Q.Cons, həmçinin BP-nin fəaliyyəti barədə məlumat verib. “BP artıq 25 ildir ki, Azərbaycanda təhlükəsiz və səmərəli şəkildə fəaliyyət göstərir. Biz burada etibarlı və uğurlu tərəfdaşlıq qurduğumuz üçün qürur duyuruq. Bu yaxınlarda Azərbaycan tərəfi ilə əsas müqavilənin 2050-ci ilə qədər uzadılması bu tərəfdaşlıqda yeni bir səhifədir”.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev şirkətin yerli müəssisədən transmilli şirkətə çevrilməsi barədə danışaraq SOCAR-ın xarici şirkətlər ilə əməkdaşlığına toxunub, eyni zamanda Azərbaycanın milli gəlirlərinin artırılması istiqamətində SOCAR-ın öz investisiya strategiyasını şaxələndirdiyini vurğulayıb. “Neft qiymətləri yüksək olduğuna görə neft və qaz hasilatına irihəcmli investisiyalar qoyulub. Bununla belə, neft emalı və kimya məhsullarının istehsalına irihəcmli investisiyalar qoymaqla bərabər SOCAR öz aktivlərini şaxələndirmək qərarına gəlib. Neft qiymətləri düşən zaman biz bu qərarın sağlam məntiqə əsaslandığına bir daha əmin olduq. Biz xam neft ticarəti ilə müqayisədə kimya məhsullarının qiymətlərində daha az qiymət dəyişmələrinin şahidi olduq. Nəticə etibarilə, biz ötən illərdə neft emalı və kimya məhsullarından əvvəlki illərlə müqayisədə daha böyük gəlirlər əldə etdik. Beləliklə, biz ölkəmizin sərvətinin artırılmasına töhfə vermək məqsədilə bütün dünyada müxtəlif ölkələrdə investisiya qoymağa davam edəcəyik”.



## Bu gün hava çiskinli və küləkli olacaq

**Noyabrın 17-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, gün ərzində yarımadanın bəzi yerlərində arabir çiskin olacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturunun yarımadada gecə 9-12°, gündüz 15-17°, Bakıda gecə 10-12°, gündüz 15-17° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 6-11°, gündüz 15-18°, dağlarda gecə 2-7°, gündüz 8-13° isti olacağı gözlənilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Muqabe istefaya getməyəcəyini bildirib

**Zimbabvenin prezidenti Robert Muqabe istefaya getmək təklifini qəbul etməyib. Bu barədə ölkə təhlükəsizlik qüvvələri xarici KİV-ə məlumat veriblər.**

Məlumata görə, R.Muqabe ilə hazırda ölkədə vəziyyətə nəzarət edən hərbçilər arasında danışıqlarda vasitəçi rolunu katolik keşiş Fidelis Mukonori öz üzərinə götürüb.

R.Muqabe seçki keçirilməden postunu tərk etməyəcəyini bəyan edib.

Qeyd edək ki, noyabrın 14-də axşam saatlarında hərbçilər ölkədə əsas obyektləri nəzarət altına alıblar. Növbəti gün Muqabe və onun xanımı Qreys saxlanılıb. Hazırda onların prezident iqamətgahında ev dustaqlığında olduqları bildirilir.

## Güzəştli mənzillərin satışı başlayır

**Bu gündək “Güzəştli mənzil” elektron sistemində 7 mindən çox insan qeydiyyatdan keçərək elektron kabinetə sahib olub.**

Milli.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) Aparatının rəhbəri Anar Quliyev bu gün “MİDA”nın ilk layihəsi olan Yasamal Yaşayış Kompleksinin internet səhifəsinin təqdimatı zamanı deyib.

Onun sözlərinə görə, artıq yaxın aylarda Yasamal Yaşayış Kompleksində güzəştli mənzillərin satışına başlanılacaq: “Ümid edirəm ki, vətəndaşlar artıq 2018-ci ilin yay aylarında ilk güzəştli mənzillərə sahib olacaqlar”.

Qeyd edək ki, Yasamal Yaşayış Kompleksinə hələlik 9 və 12 mərtəbəli olmaqla 29 bina daxildir. Binalarda 1,2,3 otaqlı mənzillər satışa çıxarılacaq.

Ümumilikdə alıcılara 1854 mənzil təqdim.olunacaq.

**Bu mənzillərdə aylıq ipoteka ödəməsi 300 manatdan artıq olmayacaq.**




## Azərbaycanlı gənclər Tiflisdə aksiya keçirdilər

**Bir qrup azərbaycanlı gənc Ermənistanın Gürcüstandakı səfirliyi qarşısında etiraz aksiyası keçirib. “Report” xəbər verir ki, əllərində Azərbaycan bayrağı, “Dilqəm Əsgərova və Şahlar Quliyevə azadlıq!”, “Əsirlərimizə azadlıq!”, “Torpaqlarımıza azadlıq!”, “Ermənistan işğalçıdır!”, “Sarkisyan terrorçudur!” şüarları yazılmış plakatlar tutan aksiya iştirakçıları Ermənistanın girovluğunda olan Dilqəm Əsgərov və Şahlar Quliyevin azad olunmasını, Ermənistandan işğalçılıq siyasətinə son qoymasını, işğal altında olan torpaqlardan geri çəkilməyi tələb ediblər.**

Aksiyanın əsas təşkilatçılarından biri, Bavariyadakı Azərbaycan Diaspor Mərkəzinin rəhbəti Akif Məmmədov deyib ki, əsas məqsəd işğal olunmuş Azərbaycan torpaqlarının azad olunmasına, qanunsuz həbsdə olan soydaşlarımızın azadlığa buraxılmalarına nail olmaq, dünya ictimaiyyətinin diqqətini Ermənistanın işğalçılıq siyasətinə yönəltməkdir. Onun sözlərinə görə, bu cür tədbirlər davamlı olacaq, başqa şəhərlərdə də təşkil olunacaq.

Ermənistanda həbsdə olan Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov deyib ki, onlar atasının və Ermənistanın girovluğunda olan digər azərbaycanlıların azad olunması üçün aksiyaları davam etdirəcəklər.

Metronun “Marcanaşvili” stansiyasından başlayan aksiya Ermənustan səfirliyi qarşısında başa çatib. Polis aksiya iştirakçılarını səfirliyin qarşısına buraxmayıb.

## 2739 nəfər “Xalq” və “Əməkdar” fəxri adlarına görə təqaüd alır

**Bu ilin oktyabrın 1-dək Azərbaycanda “Xalq” və “Əməkdar” fəxri adlarına görə təqaüd təyin olunan şəxslərin sayı açıqlanıb. Dövlət Statistika Komitəsindən bildirilib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun məlumatlarına əsasən, 221 nəfər “Xalq” fəxri adına görə, 2 517 nəfər isə “Əməkdar” fəxri adına görə təqaüd alır.**

Qeyd edək ki, “Xalq” fəxri adına görə 100, “Əməkdar” fəxri adına görə isə hər ay 60 manat ödənilir.

## Azərbaycan ilk peykindən 80 milyon dollar qazanıb

**Azərbaycanın ilk peyki olan “Azerspace-1"-dən gəlirlər 80 milyon dollar təşkil edib. Virtualaz.org bildirir ki, bunu Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin akademik Kərim Kərimovun 100 illik yubileyinə həsr olunmuş iclasında “Azərkosmos” ASC-nin sədri Rəşad Nəbiyev deyib.**

R.Nəbiyev həmçinin bildirib ki, “Azerspace-2" peyki gələn il orbitə buraxılacaq.



# Milli azadlıq hərəkatının 29-cu ili

## Ənvər Əliyev: “Bu gün o meydan yoxdur”

**Bu gün Azərbaycanda milli azadlıq hərəkatının başlandığı gündür. Müstəqilliyimizin əldə edilməsi yolunda ilk addımın atıldığı 17 noyabr tariximizə Milli Dirçəliş Günü kimi yazılıb. Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı antiazərbaycan siyasəti nəticəsində 29 il öncə - 1988-ci ildə Azərbaycanda anti-sovet xalq hərəkatı təşəkkül tapıb.**

Məhz bunun nəticəsində 1988-ci ildə Azadlıq meydanında (o zaman Lenin meydanı adlanırdı-red.) 17 noyabrdan dekabrın 5-ə qədər davam edən uzunmüddətli oturaq aksiya keçirilib. Bundan üç il sonra əldə etdiyimiz müstəqilliyimizdə bu günün önəmi misilsizdir.

Hər ilin bu günləri 17 noyabr ətrafında ən müxtəlif müzakirələr açılır. 29 il öncə başlayan proseslərdə itirdiklərimiz və qazandıqlarımız müzakirə edilir. İstiqlalımızı əldə etməyimiz önə çəkilir və xalq olaraq qazancımızın müqayisəyə gəlməyəcək dərəcədə yüksək olduğu vurğulanır. Amma bununla belə Dağlıq Qarabağ kimi tarixi ərazilərimizin işğalı itkimiz kimi qələmə verilir.

Eyni zamanda, 17 noyabrda insanların toplaşdığı Azadlıq meydanının taleyi ciddi müzakirələr doğurub. Demək olar ki, hazırda o meydanda meydanlıq halı qalmayıb. Şərəfli tariximizin başlandığı bu müqəddəs məkandan avtomobil dayanacaqları və ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq səviyyəli idman yarışlarının təşkil olunduğu yerlərdən biri kimi istifadə olunur.



Bayramlar, qeyri-iş günləri sırasından çıxarılan Milli Dirçəliş Günümüzün 29 illiyini hərəkatın önəmli simalarından olan Ənvər Əliyevlə dəyərləndirdik.

**17 noyabr mitinqinin öncüllərindən olan Ə.Əliyev duyğusal danışdı:** “O zamankı xalqımı heç bir xalqla müqayisə edə bilmərəm. Kənar xalqların içərisində də az olmamışam, Azərbaycan xalqının 29 il öncəki inqilabı düşüncəsi, vətəndaş mövqeyi, vətənpərvərlik hissi inanmıram ki, başqa bir xalqda olsun. O elə bir hiss idi ki, 50-100 ildə bir xalqa qismət olur. O zaman Azərbaycan ziyalıları, tələbələri tamam başqa ruhda idilər. Azərbaycan qadını ən fədakar qadın simvolu kimi düşüncəmə həkk olunub. Biz küçələrdən meydana doğru yürüş edəndə balkonlardan qadınlar qışqırırdı ki, yavaş gedin, uşağı bağçaya, məktəbə qoyub gəlirik, biz də sizlərə qoşuluruq. Özümü xoşbəxt sayıram ki, mən o günləri görmüşəm. Yazılarımda azdan-çoxdan bunları qeyd edirəm. Düşünürəm ki, Azərbaycanın inqilabi tarixi o günlərlə müqayisə olunmalıdır. Amma indi təəssüflər olsun ki, bizlər tanınmaz bir haldayıq. Biz indi qarın, bir tikə çörək düşüncəsi ilə yaşayırıq. Düşünmürük ki, bu düşüncə qarın doyana qədərdir. Biz o hadisələri Topxana hadisələri ilə izah etməməliyik. O vaxt mənim aparıcısı olduğum mitinqdə ermənilərə birliyimizi göstərmək üçün analoqsuz çıxışlar olub. O zaman dörd maddəmizin biri də Topxana oldu. Niyə biz böyük məsələlərimizi kiçik, bəsit bir hissələrə bölməliyik? Bütün dünya xalqımızın birliyindən danışırdı. O dövrün prizmasından danışsam, millətimizdən torpaq almaq çətin məsələ idi. Bizdən bəlkə də yüz dəfə çox olanlar o vaxt bizim yolumuzla getdilər, amma meydana bizdən qat-qat az insan yığa bildilər. Biz ilin xalqı da boş yerə olmadıq. O adı bizə verənlər hər şeydən xəbərdar idilər”.



**Ə.Əliyev itirdiyimiz və qazandıqlarımızdan da danışdı:** “Əvvəla, müstəqillik qədər millətin tarixində önəmli, yaddaqalan, millətin millət kimi formalaşmasına təkan verən ikinci bir hadisə ola bilməz. Bu çox böyük bir hissdir. Təəssüf ki, biz onu olduqca kiçildirik. Biz atributlarımızın, bayrağımızın, Cümhuriyyətimizi yaradan kişilərimizin arzularının bərpası uğrunda vuruşurduq. Bizim canımızı fəda etməyi göz altına aldığımız, bunun üçün mübarizə apardığımız simvollarımızı metro stansiyalarında, universitetlərimizin döşəmələri üstündə görəndə nifrət yaranır ki, ay biçarələr, sizlər layiq olmadığınız müqəddəs şeylərə niyə nail olmusunuz. O bayrağı bağrına basıb, öpən çoxsaylı oğlanlar görmüşəm. Yanımda olan o insanlar sonradan cəbhədə vuruşdular, şəhid oldular. O bayrağın üstündəki səkkiz guşəli ulduz indi bəzi yerlərdə foyedə ayaqlar altındadır. Əlimizlə qazandıqlarımızı öz əlimizlə məhv edirik. Milli ruhun itirilməsinin nəticəsidir ki, torpaq gedir. Ana dediyimiz vətənin anasını ağlatdıq. Əl çala-çala itirdiklərimizə ancaq cümə axşamı keçiririk”.

**Müsahibimiz Azadlıq meydanının acınacaqlı duruma salınmasına kövrələrək belə münasibət bildirdi:** “Bu gün o meydan yoxdur. Bu meydan bir qrup insanın yığışıb siqaret çəkməsi, tum çırtlaması üçün deyil. O vaxt o meydana girəndə bilsəydik ki, qanımızı tökəcəklər, yenə geri dönməzdik. Orada insanlar bir-birinə ruh kimi baxırdılar, ruhlar, fikirlər müqəddəsləşmişdi. İndi o meydan heç nəyə yaramayan bir yerə çevrilib. 29 il öncəki hissləri inanıram ki, yenidən geri qaytaracağıq. Zamana ehtiyacımız var. Biz müqəddəs sandıqlarımızın ucuzlaşdırıldığını görəndə ruhdan düşdük. O zaman valideynlərimiz bizi meydanlara təhrik edirdi. 70 yaşlı anam böyük məmurun mənim aksiyalara nə üçün getdiyimi soruşanda deyirdi ki, o orada olmasa, sən burada otura bilməzsən, sən nə qanırsan ki, vətən, müstəqillik nədir. Bunu müharibədə ailəsini itirmiş, 1937-ci ilin qırğınlarını görən anam deyirdi, o qorxu nə olduğunu bilmirdi”.

❑ **Cavanşir ABBASLI**

# Həbsdə olan İlqar Məmmədova görə 10 min avro cərimə kəsildi

## Strasburq Məhkəməsi onun hüquqlarının pozulduğu qənaətindədir



**Noyabrın 16-da Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) həbsdə olan REAl Hərəkatının lideri İlqar Məmmədovun işi üzrə ikinci qərarını elan edib.**

Belə ki, Strasburq Məhkəməsi onun Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı (ədalətli məhkəmə təhqiqatı) maddəsi üzrə hüquqlarının pozulduğunu təsdiq edərək, hökmdən verdiyi şikayəti təmin edib və ona 10 min avro ölçüsündə pul kompensasiyası ödənilməsi barədə qərar verib.

Bu barədə “Turan”a **onun vəkili Fuad Ağayev** bildirib. Bu, AİHM-nin Məmmədovun işi üzrə ikinci qərarıdır.

REAl Hərəkatının lideri İlqar Məmmədov 2013-cü ilin yanvarında İsmayıllı rayonunda iğtişaşların təşkili ittihamı ilə həbs edilib və 7 il müddətinə azadlıqdan məhrum edilib.

Amma Avropa İnsan Hüquqları Məhkəməsi onun həbsini qanunsuz və siyasi motivli hesab edib və dərhal azad edilməsi barədə qərar çıxarıb. 2014-cü ilin mayında qəbul edilmiş bu qərar indiyədək icra edilməyib.

2017-ci il oktyabrın 25-də Avropa Şurası Nazirlər Komitəsi Azərbaycana AİHM-nin İlqar Məmmədovun işi üzrə qərarının icrasını təmin etmək zərurəti ilə bağlı hüquqi tədbirlər həyata keçirməyə başladığı barədə rəsmi xəbərdarlıq edib. Məmmədov azad edilməsə, bu prosedurların sonu Azərbaycana qarşı sanksiyalar tətbiq edilməsi ola bilər.

# Bərdədə “07" ər və arvadı vurub öldürdü



**Bərdə rayonunda iki nəfərin ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Noyabrın 16-da Bərdə şəhərinin Bakı prospektində 1986-cı il təvəllüdlü Cəfərov Malik Baloğlan oğlunun idarə etdiyi, 02 BR 258 dövlət nömrə nişanlı, “VAZ 2107" markalı avtomobillə 1967-ci il təvəllüdlü Əliyev Zakir Rasim oğlu və onun həyat yoldaşı, 1970-ci il təvəllüdlü Əliyeva Zülfiyyə Məhəmməd qızı vurulub. Piyadaların ikisi də hadisə yerində ölüb. Sürücü saxlanılıb.**

YENİ MÜSAVAT
N 239 (6853) 17 noyabr 2017

# Eldar Mahmudov nəzarət altında

## Sabiq MTN rəhbərinin sirlə əhatələnən dindirilməsi niyə məhz indi baş tutur?

**2015-ci il oktyabrın 17-də vəzifədən çıxarılmış milli təhlükəsizlik naziri Eldar Mahmudov 2017-ci ilin noyabrında istintaqa çağırıldı. Və dərhal da "MTN işi"ni ilk günlərdən izləyənlərdə "niyə məhz indi" sualını doğurdu. Məlumata görə, E.Mahmudov nəzarət altına alınıb və hərəkət məhdudiyyəti qoyulmaqla ölkədən çıxışı yasaqlanıb.**




E.Mahmudovu 2015-ci ildə komandasının üzvləri həbs edilərkən də istintaqa çağırıb dindirmək üçün xeyli əsas və sübutlar vardı. Onun əməllərindən zərərçəkənlərin fəryadları mətbuatdan bəs deyincə yayılmışdı. Həmin vaxt istintaqa çağırmadılar. Eldar Mahmudovun həbs olunacağı haqda gözləntilərin ən pik dövrlərindən ona yaxın düşən olmadı. Artıq hər kəsdə Mahmudovun toxunulmazlığı haqda fikirlərin hakim olduğu bir dönəmdə sabiq nazirin əmisi oğlu və köməkçisi Vüqar Mahmudov istintaqa dəvət olundu, dindirildi, qandallandır. Əslində elə V.Mahmudova da bir neçə gün əvvəl irəli sürülən ittihamı da elə həmin 2015-ci ilin oktyabr günlərində ona vermək, özünü həbs etmək olardı.

Bunun üçün 2 il gözləmək vacib idimi? Maraqlı bir detal da odur ki, E.Mahmudov "MTN işi"ndən qalib çıxdığı kimi göründüyü bir dönəmdə istintaqçılarla üz-üzə gətirildi. Onun komanda üzvlərinə cəmiyyətin gözlədiyindən, iş üzrə zərərçəkənlərin istəyindən daha yüngül cəzalar təyin olunduğu bir vaxta təsadüf etdi.

**"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı** deyir ki, hazırda E.Mahmudovla əlaqəli çox maraqlı bir prosesə şahidlik edirik: "Eldar Mahmudovun ötən 2 ildən bir qədər artıq müddətdə istintaqdan kənar qalması onu çox ciddi dairələrin himayə etməsi fikrini qətiləşdirmişdi. Ötən müddətdə onun həbs olunmaması çox ciddi şəkildə qorunmasından xəbər verirdi. Amma son baş verən hadisələr göstərir ki, hazırda əks proses başladılıb. Əvvəlcə Eldar Mahmudovun cəmiyyətdə hələ də qalmaqda olan mifini dağıdırlar. Məsələn, onun Baş Prokurorluğun İstintaq İdarəsinə çağırılaraq dindirilməsi, oradan çıxarkən ən müxtəlif pozalarda fotoların mətbuatda peyda olması ona işarədir ki, Eldar Mahmudovun mifini dağıdırlar. Onunla bərabər onun arxasında dayanan güclərə dirsək göstərir, mesaj verirlər".

**Ə.Zeynallı hesab edir ki, başladılan proses E.Mahmudovun getdikcə zəifləcək və onun sıradan çıxarılmasına gətirib çıxaracaq:** "Mümkündür ki, sonda onu həbs edəcəklər. Hazırda aparılan proses məncə buna hesablanıb. Çünki Eldar Mahmudov elə miqyasda adamdır ki, onun istintaqa çağırılması, dindirilməsi sıradan məsələ deyil. Onun himayəçilərinə də güc göstərilir. Onu sıradan bir şəxsə çevirib, cəmiyyəti buna alışdırandan sonra, əlindəki görüntüləri də zərərsizləşdirəndən sonra barəsində qərar veriləcək".

**Ə.Zeynallı deyir ki, ötən 2 ildə E.Mahmudov haqda yayılan xəbərlər onun ayaqda qalması fikrini formalışdırmışdı:** "Məlumatlar yayılırdı ki, Eldar Mahmudov çox rahat şəkildə toya qatılıb, haradasa yasa gedib, restoranda kef məclisində olub. Bu məlumatlar dolayısı ilə Eldar Mahmudovun ayaqda qalmasına, hərəkət sərbəstliyinin olmasına işarə idi. Onun himayəçilərinin də güclü olması mesajı idi".

**Ə.Zeynallı istisna etmir ki, E.Mahmudovun komanda üzvlərinin daha yüngül cəzalarla "MTN işi"ndən çıxmaları əks cinahı hərəkətə gətirib:** "Bütün hallarda bu gün şahidlik etdiyimiz olaylar daxildəki böyük müharibənin, qarşıdurmanın təzahürüdür. Çünki Eldar Mahmudovun ətrafında olub məhkəmə qarşısına çıxarılan adamlar əməllərinin qarşılığında ən azından 20-25 il cəzaya məhkum olunmalı idilər. Əvəzində 7-8 il müddətinə azadlıqdan məhrum edildilər. Bu qərarların verilməsində Eldar Mahmudovun birbaşa olaraq rolu olmasa da, onun himayəçilərinin rolu görünür. Bu gün Eldar Mahmudovun istintaqa çağırılması, nüfuzdan salınması da onun təmsil olunduğu qruplaşmaya güc nümayişidir".

**Ə.Zeynallı deyir ki, baş verənlərdə daxili qarşıdurmalarda kompromat davasının izləri də olmamış deyil:** "Mahmudovun komandasının üzvləri olmuş şəxslərə yüngül cəza verilməsi kompromatların istifadəsinin qarşısının alınmasına hesablanan addımlar kimi də qiymətləndirilə bilər. Eldar Mahmudova ən yaxın kadr hesab edilən Akif Çovdarov da məhkəməsində meydan oxumuşdu ki, mən agentlərin adlarını açıqlaya bilərəm. Görünür ki, MTN generalları arasında kompromat savaşına çıxmaq istəyənlər də olub. Az cəzanın verilməsinin bir səbəbi də budur. Hazırda baş verənlər isə Eldar Mahmudov mifinin qırılmasıdır".

**Ə.Zeynallı deyir ki, E.Mahmudovla əlaqəli pərdəarxası baş verənlərdən mətbuat və cəmiyyət bixəbərdir:** "15 gün əvvəl xəbər yayılmışdı ki, Eldar Mahmudov ölüb. Bu təsadüfi deyildi. Yəni hər an hər bir şey ola bilər. Bizlər çox ciddi kompromat savaşının şahidləriyik. Pərdəarxası oynanılan oyunlardan kənar olsaq da, təzahürlər ortadadır. Bilirik ki, Eldar Mahmudovun 2800 seks video kompromatı var. İctimailəşən kompromat davasının çox az bir hissəsidir. İndiki məqamda qərar verilib ki, Eldar Mahmudovu adiləşdirsinlər. Sonra nə olacaqsa, bunu yaxın zaman göstərəcək".

**Bununla belə Ə.Zeynallı E.Mahmudovun əlindəki kompromatlardan istifadə etməyəcəyi, bunun üçün o qədər də cəsarətli olmadığı haqda fikirləri də qəbul etmir:** "Qorxaq, cəsarətsiz adam 2800 video çəkdirməz. Milyonlarla dolları qutulara yığıb orda-burda saxlamaz. Bəli, xəbərlər var ki, Eldar Mahmudov o qədər də cəsarətli adam deyil. Amma bu o demək deyil ki, o, əlindəki kompromatlardan istifadə etməyəcək. Hakimiyyətdəkilər çox gözəl bilir ki, onun əlində nələr var və nələr də ola bilər. Onun çox ciddi fiqur olmasını hakimiyyətin ən müxtəlif təbəqələrindən bilirlər. Qorxaqlığı, çox ehtiyatlı olması ilə bərabər Mahmudov o qədər böyük fiqurdur ki, onun İstintaq İdarəsinə çağırılması hakimiyyətin özü üçün də şok olub. Buna görə də dərhal fotoları mətbuatda yayıldı. Əslində nə baş verib. İşdən çıxarılan bir nazir İstintaq İdarəsinə çağırılıb. Normalda ona bu qədər diqqət, ajiotaj olmamalı idi. Hakimiyyətin özü üçün də o qədər şok olub ki, heyrətlər içərisində Eldar Mahmudovun fotolarına mətbuatdan tamaşa etməkdən özlərini saxlaya bilməyiblər. Hakimiyyət içində Mahmudov vahiməsi var. Digər tərəfdən, ən gözlənilməz və cəsarətli addımlar ən qorxaq hesab olunan adamlardan çıxır. Bunu da unutmaq lazım deyil".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Azərbaycan mediasında "xarici agent" müzakirələri

## Milli Məclisin iki deputatı Rusiyada qəbul edilən qnunun ölkəmizdə də tətbiqini istəyirlər

**Noyabrın 15-də Rusiya Dövlət Duması "İnformasiya haqqında" və "KİV haqqında" qanunlara dəyişiklikləri qəbul edib. Dəyişikliklərə əsasən, Rusiyada hansı media qurumlarının "xarici agent" siyahısına düşəcəyi müəyyənləşdirilib.**




Bundan sonra 3 kriteriyadan birinə uyğun gələn KİV "qara siyahıya" düşəcək. Həmin kriteriyalar isə bunlardır - ölkə xaricində qeydiyyatdan keçən, xaricdən maliyyələşən və maliyyəsi xaricdən gələn Rusiya şirkəti tərəfindən maliyyələşən KİV-lər. Bundan başqa, qanuna yeni anlayış da əlavə olunub - əcnəbi KİV-lər.

Rusiyanın məlum qanunlara dəyişiklik etməsi təsadüfi deyil. Rəsmi Moskva bu addımı ABŞ-ın analoji addımına cavab olaraq atıb. Belə ki, Amerikanın Ədliyyə Nazirliyi Rusiyanın məşhur RT telekanalının ABŞ-da "xarici agent" kimi qeydiyyatdan keçməsini tələb edirdi. Və bunun üçün Moskvaya noyabrın 13-dək vaxt verilmişdi. Telekanal rəhbərliyi bu tələbi yerinə yetirib. Rusiya Dumasının deputatları ABŞ-ın RT-yə qarşı bu tələbinə eyni şəkildə cavab verəcəklərini bildirmişdilər.

**Rusiyalı politoloq, Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitriy Salonnikov** deyib ki, bu addım iki məqsəd daşıyır: "İlk növbədə, bu qanun ABŞ-ın "Russia Today" və "Sputnik" məlumat mərkəzləri ilə bağlı görülmüş tədbirlərə qarşı cavab olaraq verilib. Hazırda ABŞ-da 400-ə yaxın KİV xarici agent kimi qeydiyyatdan keçib. Nə üçün bu cür tədbirlər ABŞ-da fəaliyyət göstərən Avropa və ərəb dövlətlərinin, İsrail və eləcə də, digər ölkələrin mətbuat mərkəzlərinə münasibətdə görülməsin? Bu nöqteyi-nəzərdən, Rusiya qanunvericiliyin apardığı fəaliyyət daha dürüstdür, belə ki, bu qanun yalnız Amerika KİV-lərinə qarşı deyil, bütün xarici KİV-lərə aid edilir. Həmçinin, bu qanunun 2018-ci il prezident seçkiləri ərəfəsində qəbul edilməsi də önəm kəsb edir. Belə ki, Rusiya qanunverici orqanının əsas məqsədi yerli siyasi məsələləri xarici medianın müdaxiləsindən qorumaqdır."

**Milli Məclisin deputatı Aqil Abbas** xarici ölkələrdən maliyyələşən KİV-lərin casus hesab olunmasını nəzərdə tutan Rusiya qanununun Azərbaycanda da qəbul edilməsini təklif edib. "Trend" xəbər verir ki, belə bir təşəbbüslə Milli Məclisin Mədəniyyət komitəsinin üzvü Aqil Abbas komitənin iclasında çıxış edib. O bildirib ki, Rusiyada qəbul edilən yeni qanuna görə xarici ölkələrdən maliyyələşən KİV-lər casus hesab olunacaqlar: "Bizim də belə bir qanuna ehtiyacımız var. Bir qəzet redaktoru kimi bilirəm ki, bizdə də belə hallar çoxdur. Məncə, bu məsələnin qaldırılmasına ehtiyac var".

**Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Rafael Hüseynov** isə deyib ki, bunu ayrıca qanun kimi də, qanunlara əlavələr kimi də etmək mümkündür.

**Politoloq Şahin Cəfərli**nin mövzu ilə bağlı mövqeyi fərqlidir. Ş.Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Rusiyada bəzi Qərb media orqanlarına "xarici agent" statusu verilməsini bizdə onların casus elan olunması kimi anlayanlar olub: "Hətta Rusiyanın pasını dərhal qəbul edən Aqil Abbas Milli Məclisdə bu barədə məsələ qaldıraraq Azərbaycanın da analoji addım atmasını təklif edib. "Xarici agent" casus demək deyil, bu status bir ölkədə fəaliyyət göstərən xarici media orqanlarının həmin ölkədəki hüquqi durumunu müəyyənləşdirir. "Xarici agent" elan edilənlər bundan sonra Rusiya Ədliyyə Nazirliyinə öz sənədlərini təqdim edib, qeydiyyatdan keçməli olacaqlar, halbuki əvvəl sadəcə akkreditasiya proseduru mövcud idi. Bundan başqa, xarici agentlər yaydıqları xəbərlərdə, videolarda öz statuslarını qeyd etməlidir. Eyni zamanda, onların maliyyə sənədləri yerli audit üçün açıq olmalıdır. Audit nəticəsində həmin media orqanlarının yerli qanunlara zidd fəaliyyəti aşkarlansa, hakimiyyət orqanları fəaliyyətlərinin dayandırılması da daxil olmaqla, onlara qarşı müxtəlif sanksiyalar tətbiq edə bilər".

**Meydan TV-nin sosial media meneceri Həbib Müntəzir isə deyib ki, A.Abbasın da etirafından belə nəticəyə gəlmək olar ki, məqsəd müstəqil informasiya axınının qarşısını maksimum şəkildə almaqdır:** "Onsuzda Meydan TV online olaraq fəaliyyət göstərir və saytımız artıq ölkə sərhədləri daxilində qadağan olunub. Sadəcə, mənə maraqlıdır ki, bu qanun qəbul edilərsə, "Sputnik" informasiya agentliyi və İnteraz kanalına da şamil olunacaqmı? Çünki bu agentlik və kanalın Rusiyaya məxsus olduğu hamıya bəllidir".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 239 (6853) 17 noyabr 2016

# BŞİH rəhbərinin səhhəti haqda xəbərlərin pərdəarxası

**Son günlər Bakı Şəhər İcra Hakimiyyətinin(BŞİH) başçısı Hacıbala Abutalıbovun tezliklə istefaya göndəriləcəyi ilə bağlı xəbərlər yenidən intensivləşib. Gələn ilin yanvarında icra başçısı təyinatının 18 ili tamam olacaq Abutalıbovun səhhətinin pisləşməsi, iflic olduğu üçün gecə ilə Almaniyaya aparılması haqda xəbərlər də bu baxımdan diqqət çəkir.**




## Abutalıbov üçün istefa hazırlığı: özü yox, səlahiyyətləri iflic olub

İddia olunur ki, Hacıbala Abutalıbovun səhhətinin gözlənilmədən gündəmə gətirilməsi iqtidarın onunla yollarını ayıracağına işarə ola bilər; Yeni ilin ilk - yanvar müşavirəsinədək təkcə icra başçıları deyil, hətta bir neçə nazir və komitə sədrinin də dəyişdiriləcəyi gözlənilir...

BŞİH-dən Bakı merinin beyin insultu keçirməsi ilə bağlı yayılan məlumatlara dərhal münasibət bildirərkən deyiblər ki, Abutalıbov işə çıxır və səhhəti də yaxşıdır. Sonra Abutalıbov özü də açıqlama verməkməcburiyyətində qalıb: "Mən hazırda iş başındayam. Bu dəqiqələrdə müdriklikdən müqəddəslik zirvəsinə qədər ucalmış Heydər Əliyevlə görüşüb gəlirəm. Mən nəinki şeytanı mələyə çevirmək istəyənlərə, özlərilə bacaran və talelərilə razılaşan insanlara, hətta şeytana da sağlam və xoşbəxt həyat diləyirəm".(modern.az)

Məlumatların kimlər tərəfindən yayılmasına gəlincə, H.Abutalıbov konkret fikir bildirməyib: "Kimliyindən asılı olmayaraq, gəlin, hamımız bir yerdə bizə alın yazısı kimi verilmiş tale ilə razılaşıb, xoşbəxt olmağı bacaraq".

73 yaşlı BŞİH rəhbərinin səhhətində ciddi problemlər olması barədə xəbərdə bəlkə də qeyri-adi heç nə yoxdur, o səbəbdən ki, o da xəstələnə bilər. Amma bu "iflic" xəbərinin yaxın vaxtlarda iqtidarda ciddi kadr dəyişikliklərinin gözləndiyi vaxta təsadüf etməsi diqqəti yenidən Abutalıbovun gizəmli personasına yönəldir.

Sirr deyil ki, bir neçə ildir ki, Abutalıbovunun da vəzifə ilə vidalaşmış Ziya Məmmədov kimi səlahiyyətlərinin "iflici" prosesi gedir. Ən son olaraq Dövlət Reklam Agentliyinin yaradılması və BŞİH-nin milyonların dövr etdiyi reklam bazarından çıxarılması buna sübut ola bilər. Məlumdur ki, Abutalıbov reklam biznesini itirənədək də bir çox ciddi gəlir qaynaqlarından faktiki, məhrum edilmişdi. Abutalıbovun səlahiyyətləri "budandıqca" onun hakimiyyətin rəsmi media orqanlarında tənqid edilməsi faktları artıb. H.Abutalıbovun bu qədər tənqidlərə rəğmən vəzifədə qalması, iddialara görə, onun yerinə uyğun namizədin hələ ki olmamasıdır. 2001-ci ildən paytaxt təsərrüfatına rəhbərlik edən H.Abutalıbovdan narazılıq təbii ki, çoxdur. Bu, narazılıq təkcə Bakı sakinlərinin davranışlarında deyil, hakimiyyətin ən yüksək eşelonunda da nəzərə çarpmaqdadır. Abutalıbov özü də bu durumdan məmnun deyil, indi o, aylarla gözə dəymir, yalnız ara-sıra dövlət tədbirlərində görünür. Reklamı və publikanı sevən Abutalıbova indi bunun üçün şərait də yoxdur...

**BŞİH postu, məlum, siyasi hakimiyyət üçün mühüm əhəmiyyət kəsb edir, baxmayaraq ki, əsasən təsərrüfat işləri ilə məşğuldur.** Bakı meri olmaq istəyənlər çoxdur və bu posta indiyədək onlarla məmurun adı hallanıb. İddia olunur ki, Abutalıbovun səhhətinin gözlənilmədən gündəmə gətirilməsi iqtidarın onunla yollarını ayıracağına işarədir. Mümkündür ki, Abutalıbovun işdən uzaqlaşdırılmasını tezləşdirmək istəyənlər, onun postuna can atanlar da bu xəbərin yayılmasında maraqlı olsunlar. Ancaq reallıq budur ki, Abutalıbov artıq Bakını əvvəlki kimi idarəetmə gücündə deyil və onun təqaüdə göndərəcəklər.

Qeyd edək ki, iddialara görə, ilin sonunda həm Bakının və bir neçə rayonun, eləcə də əyalət icra başçılarının bəzilərinin dəyişdirəcək. Prezident Administrasiyasında aparılan islahatlar, Nazirlər Kabinetində bir neçə şöbənin ixtisar olunması, bəzi şöbə müdirlərinin yaş həddinə görə işdən çıxarılmasından sonra sıra yerli icra hakimiyyətlərinə çatıb. Məlumatlara görə, Yeni ilin ilk yanvar müşavirəsinədək təkcə icra başçıları deyil, hətta bir neçə nazir və komitə sədri də dəyişdiriləcək.

**Sonda. Bir neçə il əvvəl Abutalıbov mediaya açıqlamasında ölümdən qorxmadığını deyərək, əsas qorxusunun futbol üzrə dünya çempionatına baxa bilməyəcəyinin olduğunu demişdi. Hadisələrin gedişi göstərir ki, Abutalıbov yaxınlaşmaqda olan dünya çempionatına rahat baxmağa hazırlaşa bilər.**

❑ **"YM"**

# İldə 4-5 dəfə istirahətə gedən deputatlar kimlərdir?

**Azərbaycan Həmkarlar İttifaqının sədri, deputat Səttar Mehbalıyev bəzi deputatların və məmurların ondan həddən artıq istirahət mərkəzlərinə göndəriş vərəqəsi tələb etməsindən şikayətlənib. Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında S. Mehbalıyev bildirib ki, bəzi deputatlar ondan hətta ildə 4-5 dəfə vərəqə istəyir.**





## Fazil Mustafa: "Müraciət edənlər imkansız insanlar deyil"
## Zahid Oruc: "Hədəf biz deyilik"

O qeyd edib ki, bunlar arasında digər dövlət qurumlarında olan bəzi məmurlar da var: "Mən onlara izah edə bilmirəm ki, hər adama ildə bir dəfə düşür. Bundan da səmərəli istifadə etmək lazımdır. Amma təəssüf ki, hər il dalbadal məndən bunu tələb edirlər".

**Deputat Fərəc Quliyev** bu cür halların qanunsuz olduğunu söylədi: "Əvvəla, özümdən başlayım ki, mən son 10 ildə iki dəfə o imkandan istifadə etmişəm, təbii ki, ildə iki dəfə olmamaq şərti ilə. İldə bir dəfə belə bir hüququmun olduğunu da yaxşı bilirəm. Daha çox istirahətimi Azərbaycanda keçirməyə üstünlük vermişəm. Səttar müəllim haqlıdır. Belə bir imtiyaz varsa, bu imtiyazdan da sui-istifadə olunursa, bir az da qarşı tərəf yüklənirsə, bu doğru sayılmaz. Elə məsələlər var ki, istər deputat, istərsə də, məmurlar olsun, yazılmamış qaydalara əməl etməlidirlər. 10 milyon əhali içərisindən cəmi 125 nəfər deputat seçilir, yəni bizlər say-seçmə şəxslərik. Bu baxımdan etik qaydalara hər zaman əməl olunmalıdır. Səttar müəllimi gərək üzdən-gözdən salmasınlar. Bu baxımdan ona tam haqq qazandırıram. Bizim parlamentdə əksər deputatlar işgüzardırlar. Hətta tətil zamanı belə işlədiklərini görürük. Bütün işlərdə olduğu kimi, Milli Məclisin işində də ildə bir dəfə uzunmüddətli istirahət olur. Bütün dünyada belədir. Müxtəlif sahələrin müxtəlif cür istirahət zamanları var. Tibbi baxımdan qalan vaxtda istirahət götürmək yorğunluğu atmaq deyil, tənbəllikdir. İşdən yayınma halı kimi də bunu qəbul etmək olar. Yeni iş mövsümünə hazırlaşmaq üçün orqanizmin bərpa olunmasına ehtiyac var. Amma istənilən halda ildə 4-5 dəfə istirahət etməyin heç bir əsası yoxdur".

**Deputat Fazil Mustafa kifayət qədər sərt danışdı:** "Səttar müəllim tamamilə haqlıdır. Bu bir mədəniyyət məsələsidir. Çünki insanlar fürsətci olmamalıdır. Hansısa bir şəkildə hüquq və imtiyazlar varsa, ondan qanuna uyğun şəkildə istifadə etmək hamının borcudur. Şəxsən mən iki ildən bir belə müraciət edirəm. Hətta bəzən il olur ki, müraciət etmirəm. Bilirəm ki, qaydalar ildə bir dəfə müraciəti tələb edir. Səttar müəllimin dediklərinə qatılıram. Hətta sizə səmimiyyətlə deyirəm ki, müraciət edənlər imkansız insanlar deyil. Hamısının on qat imkanı çata bilir ki, məsrəfləri ödəsin. Sadəcə hansı fürsətlər varsa, daha çox onu dəyərləndirməyə üstünlük verirlər. 4-5 dəfə müraciət etmək həm də başqasının haqqına girməkdir. Bu açıqlamanın verilməsi yaxşıdır ki, hər kəs öz dərsini götürsün ki, ildə bir dəfə gedirsənsə, qalanlarını özün etməlisən".

**İqtidaryönlü deputat Zahid Oruc** 9 il ərzində üç dəfə bu hüquqdan istifadə etdiyini bildirdi: "Səttar Mehbalıyev doğrudan da dəyərli həmkarlarımızdan biridir. Yay mövsümündə onun yaşantıları, keçirdiyi hissləri bir qədər müşahidə etmək imkanımız olur. İnsanların istirahət dövrü başlayanda o daha çox istismar olunur. Mənəvi cəhətdən, psixoloji baxımdan bu onun üçün daha çox yükə çevrilir. Özüm barədə deyə bilərəm ki, parlament üzvü olduğum ilk doqquz ildə maaşlarımızın kiçik bir hissəsini Həmkarlar İttifaqına ödəməyimiz fonunda bu hüquqdan istifadə etməmişdim. Bəzən başqa şəxslər bundan yararlanırdı. Həmin şəxslər də parlamentdə çalışırdılar. Biz də buna etiraz etmirdik. Zatən burada bir hüquq pozuntusu da yox idi. Yalnız yaşımızın müəyyən bir çağına çatdıqdan sonra bu müddət ərzində cəmi üç dəfə 2009, 2011 və 2012-ci illərdə bu hüquqdan istifadə etmişəm. Doğrudur, ildə bir dəfə hər hansı bir şəxs üçün bu xahişi etmişik. Amma qeyd olunan 4-5 dəfə müraciət etməmişəm, bunu adətə çevirməmişəm, başqasının hüquqlarını mənimsəməmişəm. Bu hüquqdan az istifadə edənlərin sırasında bəlkə də ilk beşlikdəyəm. Bu onunla bağlı da ola bilər ki, gənclik köməyimizə çatsın. Əminəm ki, Səttar müəllim bu hüquqdan az istifadə edənlər sırasında bizim adımızı da göstərərdi. Hesab edirəm ki, hədəf biz deyilik. Hər kəsin hüququnu orada əks etdirmək çox yaxşı olardı. Bundan sonra bəlkə insanlar belə müraciətləri qaydalar çərçivəsində edərdi. Onu da deyim ki, göndərişlər konkret şəxs adına yazılmır. Bu da başqa bir problemi ortaya çıxarır ki, vətəndaşlar Həmkarlar İttifaqının fonduna çalışdıqları müəssisələrdən vəsaitlər ödəyirlər. Bunlar konkretləşsə, göndərişlərin başqa şəxslərə verilib-verilməməsini məsələsini daha normal aydınlaşdırmaq mümkün olardı. Səttar müəllim bu fikirləri ilə bütün deputatları hədəf almayıb. Yəqin ki, bu bir neçə adamdır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 239 (6853) 17 noyabr 2017

**Azərbaycanda dizel yanacağının istehsalında ciddi azalma qeydə alınıb.**
**Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin yanvar-oktyabr ayları ərzində Azərbaycanda dizel yanacağının istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 21,2 faiz azalıb. Belə ki, qeyd olunan dövrdə ölkədə 1 milyon 536,2 min ton dizel yanacağı istehsal olunub.**

# Dizelin qiymətinin artması kənd təsərrüfatını "yandıra" bilər

## Ekspert: "Müəyyən qüvvələr avtomobil bazarında tələbin strukturunun dəyişməsindən narahatdır"

Maraqlıdır ki, bir müddət əvvəl mütəxəssislər dizel yanacağının qiymətinin artırılacağını proqnozlaşdırıblar. Bu barədə mətbuata açıqlama verən **Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban** dizelin qiymətinin axırıncı dəfə 2013-cü ildə artırılaraq 45 qəpikdən 60 qəpiyə çatdırıldığını vurğulayıb. Ekspert bildirib ki, Azərbaycan hökumətinin ayrı-ayrı məhsullar üzrə artım qərarlarına nəzər yetirdikdə bir məhsulla bağlı hər 4-5 ildən bir artıma gedildiyi görünür. Buna görə də İ.Şaban bu ilin sonları üçün dizelin qiymətində artımın olacağını istisna etməyib

Düzdür, **İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev** mətbuata dizel yanacağının qiymətinin artırılması ilə bağlı Tarif Şurasına hər hansı müraciətin daxil olmadığını bildirib. Lakin təcrübə göstərir ki, bu tip açıqlamalardan bir neçə gün sonra hansısa məhsulun qiyməti artırıla bilir

Bir məsələni də qeyd edək ki, Azərbaycanda dizel əsasən tikinti, aqrar sektordakı maşın və texnikalarda istifadə olunur. Xüsusilə kənd təsərrüfatında istifadə olunan maşın və texnikalar demək olar ki, bütünlüklə dizel yanacağından istifadə edir. Bundan əlavə, ölkədaxili yükdaşımalarda istifadə olunan maşınlar əsasən dizellə işləyir. Bu şəraitdə dizelin bahalaşması hansı nəticələrə səbəb ola bilər?

Sualı cavablandıran **iqtisadçı-ekspert Rəşad Həsənov** deyir ki, dizelin bahalaşacağına dair məlumatlar Aİ-92 markalı benzinin qiyməti artırılan zamandan gündəmə gətirilib: "Bu gün konkret rəsmi qərar olmasa da, müzakirələr büdcə məsələlərindən qaynaqlanır. Digər tərəfdən, Azərbaycanda ilk dəfədir ki, bu iki yanacaq növü arasında belə kəskin qiymət fərqi yaranıb. Bu kimi amillər dizelin qiymətinin də tezliklə bahalaşacağı ehtimalını artırır. Belə bir qərar olarsa, düşünürəm ki, əlavə dəyər zəncirinin bütün həlqələrində qiymət artımı və inflyasiya dalğası yaradacağını əribaşdan söyləmək olar. Yanacaq mal və məhsulların maya dəyərinə oturur, bu baxımdan, onun qiymətindəki artım avtomatik olaraq inflyasiyanı sürətləndirir".



**Ölkədə rəsmi inflyasiya səviyyəsinin 14 faiz göstərildiyini deyən R.Həsənovun sözlərinə görə, reallıqda inflyasiya 20 faizdən də yuxarıdır:** "Dizelin qiyməti artırılarsa, bu, ilk növbədə kənd təsərrüfatı məhsullarının qiymətində artıma səbəb olacaq. Düzdür, dövlət kəndlinin yanacağa sərf etdiyi vəsaitin bir hissəsini ödəyir. Lakin kənd təsərrüfatı istehsalçıları yanacağa əvəzi ödənilən dən xeyli çox vəsait sərf edirlər. Bu isə onların xərclərinin artacağından xəbər verir."

Azərbaycanda 2007-ci ildən bəri kənd təsərrüfatı istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində istifadə edilən yanacağa və motor yağlarına görə büdcə vəsaiti hesabına 50 manat yardım verilir.

Kənd Təsərrüfatı Nazirliyi ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, bu yardımın müəyyənləşdirilməsi üzrə Respublika Komissiyasının qərarı ilə bu il 34 rayon (şəhər) üzrə 256138 istehsalçıya 737814,13 hektar əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə 49 milyon 468 min 622,50 manat məbləğində yardım ayrılıb. Dizel bahalaşarsa, dövlətin verdiyi yardımın da artırılması məsələsi gündəmə gələ bilər. R.Həsənovun fikrincə, yanacağa görə verilən subsidiyanın həcmi artırılsa belə, dövlət bu prosesdən qazanclı çıxacaq: "Subsidiya artımına sərf olunan vəsait dövlətin qiymət artımından əlavə dəyər vergisi formasında əldə etdiyi qazancdan qat-qat aşağı olacaq. Yəni dövlətin bu prosesdən itkisi elə də böyük olmayacaq. Əsas itki real sektorun olacaq: əhalinin gəlirlərinin artmadığı bir zamanda maya dəyəri və qiymətlərin artımı baş verəcək. Bildiyiniz kimi, gələn ilin büdcəsində əhalinin əmək haqqının artırılması üçün - yəni əməyin ödənişi xərclərinin cəmi 2,5 faiz çoxalması nəzərdə tutulur. Halbuki təkcə 2017-ci ildə rəsmi olaraq 14 faiz inflyasiya gedir - əhalinin gəlirləri getdikcə daha çox dəyərsizləşir. Belə bir vaxtda qiymətləri dövlət tərəfindən tənzimlənən və əlavə dəyər zəncirində qiymətlərə təsir gücünə malik məhsulların tariflərinə ehtiyatlı yanaşma olmalıdır".

**Qeyd edək ki, hökumət dizellə işləyən avtomobillərin idxalını ciddi şəkildə məhdudlaşdırmaq niyyətindədir. Bununla bağlı Vergilər Məcəlləsinə dəyişiklikləri nəzərdə tutan layihə artıq Milli Məclisə daxil olub. Layihəyə görə, istifadə müddəti bir ildən artıq olan dizellə işləyən maşınların Azərbaycana gətirilməsinə qadağa qoyulması nəzərdə tutulub. Təzə maşınları gətirərkən isə onlara tətbiq edilən aksiz vergisi 2 dəfə artırılacaq. R.Həsənov hesab edir ki, bu dəyişiklik ölkəyə benzinlə işləyən avtomobil idxal edən müəyyən qrupların təsirinin nəticəsidir:** "Son bir neçə ayda avtomobil bazarında dizellə işləyən avtomobillərə tələb sürətlə artırdı. Ümumiyyətlə, bütün dünyada dizellə işləyən avtomobillərə tələbat daha yüksəkdir. Azərbaycan bir enerji resursuna malik ölkə olduğu üçün son zamanlaradək benzinlə işləyən maşınlara tələbat daha yüksək olub. Yalnız son aylarda benzinin qiymətindəki artımdan sonra tələbatın strukturu dəyişmişdi. Dizelin qiyməti artarsa, yenidən avtomobil bazarında istehlakın strukturu dəyişəcək. Bundan əlavə, düşünürəm ki, avtomobil bazarında tələbin strukturundakı dəyişiklik kimlərəsə sərf etmir. Buna görə də böyük ehtimalla, Vergi Məcəlləsinə hazırlanan dəyişikliklər bu dəyişikliyin qarşısını almağa yönəlib".

❑ **DÜNYA**

# Artur Rəsi-Zadənin qanunu müğənnilərə "toy tutacaq"



## "Qazancımız nə olacaq?"

**Məlum olduğu kimi, 2 gündən sonra, yəni noyabrın 19-da Məhərrəmlik əyyamının ikinci ayı, Səfər ayı başa çatacaq. Məhərrəmlik ayında şiə məzhəbinə mənsub olan müsəlmanlar 40+20 gün ərzində şadlıq mərasimləri keçirmir. Bu müddət ərzində şou-biznes nümayəndələri, xüsusən də müğənnilər iki ay qazancsız qalır. Lakin Səfər ayı başa çatdıqdan sonra yenidən toy mövsümünə start verilir. Maraqlıdır, müğənnilər artıq toy mövsümünə hazırlaşırlarmı, sifarişləri varmı? Yeni toy mövsümündə qiymət artımı olacaqmı?**

Və daha bir məsələ, müğənnilər Vergilər Nazirliyinin müəllif qonorarı ilə bağlı verdiyi yeni qərar haqda məlumatlıdırlarmı, münasibətləri necədir?

Xatırladaq ki, Nazirlər Kabinetinin 20 oktyabr 2017-ci il tarixli qərarı ilə "Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi ifasına görə müəllif qonorarının minimum miqdarı"nda edilmiş dəyişikliklərə əsasən toy mərasimlərində mətnli, yaxud mətnsiz musiqili əsərlərin istifadəsinə görə müəllif qonorarlarını ödəməkdən yayınmaq mümkün olmayacaq. Müəllif qonorarından yayınmaq istəyənləri ağır cərimə və həbs gözləyir.

Beləliklə, bütün suallarımızla bağlı bir neçə müğənninin rəyini öyrənməyə çalışdıq. Xalq artisti Səməd Səmədov "Yeni Müsavat"a danışaraq bildirdi ki, artıq toy sifarişləri alıb:

"Əlbəttə ki, Səməd Səmədovsuz toylar keçməz. Sifarişlərim var, lakin ötən illərə nisbətdə azdır. Yadınızdadırsa, biz demək olar ki, hər gün toyda idik. İndi isə həftədə bir dəfə və ya aya 2-3 toyumuz olur.

Hazırda yeni nəsil müğənnilər ortaya çıxıb, o cümlədən Abbas Bağırov, Elton, Samir Piriyev və sairə. Amma buna baxmayaraq, sağ olsun ki, xalq yenə də bizə müraciət edir".

Xalq artisti toy qiymətində artım olmayacağını vurğulayıb:

"Çünki millətlə, xalq ayaqlaşmaq lazımdır. Məsələn, mən ilk olaraq 4 min manat istəyirəm. Məclis sahibləri gəlib mənimlə görüşüb, qiyməti 2 min yarıma qədər aşağı endirir. Mən də razılaşıram. Bəzən isə deyirlər ki, 2 min manat pulumuz var, razılaşın. Bilirsiz ki, hazırda camaatın vəziyyəti yaxşı deyil".

Səməd Səmədov müəllif qonorarı il bağlı məsələyə isə bu cür reaksiya verdi:

"Biz indi o qonorarı hara ödəməliyik? Tutaq ki, mən Eldar Mansurovun mahnısını oxumuşam. İndi qonorarı necə və kimə ödəməliyəm? Doğrudur, bütün sivil ölkələrdə ifaçılar ifa etdikləri mahnın müəlliflərinə qonorar ödəyirlər. Buna görə həm də bu qərara müsbət baxıram".

Müğənni Elariz Məmmədoğlu da toy qiymətlərində artım olmayacağını açıqladı: "Bildiyiniz kimi artıq toy mövsümü başlayır. Mənim də sifarişlərim var. Öz qrupumla birgə çıxışlarım olacaq. Qiymətləri artırmayacam, çünki bu mümkün deyil". Müğənni müəllif qonorarı haqda məlumatsız olduğunu dedi:

"Bu barədə məlumatım yoxdur. Gərək dəqiqləşdirim, sonra bu haqda danışım".

Müğənni Lalə Məmmədova isə yalnız dekabr ayında yarım saatlıq sifarişinin olduğunu dedi:

"Kiminsə zövgündəyəmsə məclisinə dəvət edir. Amma mən sırf toy müğənnisi deyiləm. Hər halda mənim yaradıcılığa nəzər salsanız, görərsiz ki, mən daha çox yaradıcılıq üçün çalışıram. Toydan qazandığım gəliri sırf yaradıcılığım üçün sərf edirəm. Çünki dövlət mənim üçün mahnı aranjiman etmir, bəstəkardan, şairdən mahnı alırır. Bütün bunların hamısını özüm edirəm. Vergiləri də vaxtlı-vaxtında ödəyirəm. Üstəlik qonorarla oxuduğum toylar çox azdır. Daha çox qonorarsız ifa edirəm.

Qaldı ki, toylarda ifa edilən mahnılar üçün qonorar ödənilməsinə, təsəvvür edin ki, ifama görə qonorar ödəyirəm, üstəlik bəstəkar və şairə də qonorar ödəməliyəm. Əgər mahnı xalq mahnısıdırsa, deməli onda mən bütün xalqa qonorar ödəməliyəm? Fikrimcə bu bir qədər məntiqli deyil. Belə çıxır ki, mənim bütün qazancım "orda-burda" olacaq?

Manaf Ağayev də artıq toy sifarişlərini aldığını bildirdi: "Bəli, sifarişlər almışam. Lakin məlum olduğu kimi sifarişlərin sayı ötən illərə nisbətdə azdır.

Qaldı ki, qonorar məsələsinə, necə məsləhətdir. Dövlət necə istəyirsə, o cür də qərar verir".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 239 (6853) 17 noyabr 2016

**"Bu gün idman ölkəmizin müxtəlif yerlərində artıq kütləvi xarakter alıb. Mən həmişə tövsiyə edirəm, bu gün də demək istəyirəm, hər bir insan hər gün, hər gün olmasa da, həftədə heç olmasa üç dəfə idmanla fəal məşğul olsun. Bu, insanların sağlamlığı, ümumiyyətlə, ovqatı üçün çox böyük əhəmiyyət daşıyan məsələdir".**




# Prezidentdən məmurlara mesaj: "Ən xırda kəndin də problemi diqqət mərkəzində olmalıdır"

**Bu sözləri Prezident İlham Əliyev noyabrın 16-da Abşeron Olimpiya İdman Kompleksinin açılışında çıxış edərkən deyib. Ölkə başçısı daha sonra bildirib**: "Əlbəttə, biz idmanla bağlı siyasətimizi növbəti illərdə davam etdirəcəyik. Bu gün idmançılarımız bütün beynəlxalq yarışlarda ən yüksək nəticələr göstərirlər. Azərbaycanda keçirilmiş Avropa və İslam Həmrəyliyi oyunlarında biz ən qabaqcıl yerlərdəyik. Bu il İslam Həmrəyliyi Oyunları ən yüksək səviyyədə keçirilmişdir və bütün müsəlman aləmində Azərbaycan idmançıları birinci yerə layiq görüldülər. Avropa məkanında isə biz ikinciyik. Bu, gənc müstəqil dövlət üçün tarixi nailiyyətdir və bu nailiyyəti bizə bəxş edən idmançılardır".

Prezidentin sözlərinə görə, 2017-ci ili bütövlükdə iqtisadi, sosial, beynəlxalq siyasət sahələrində yaxşı nəticələrlə, uğurlarla başa vururuq.

"Bir daha göstəririk ki, Azərbaycanda inkişaf dayanıqlıdır və uğurludur. Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək. Qarşıda duran vəzifələr hələ çoxdur. Biz bütün problemləri, insanları narahat edən məsələləri həll etməliyik. Həm Bakının, həm böyük şəhərlərin, ən xırda kəndin də problemi diqqət mərkəzində olmalıdır".

Abşeron Olimpiya İdman Kompleksi Prezident İlham Əliyevin "Abşeron və Ağcabədi rayonlarında Olimpiya İdman komplekslərinin tikintisi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 27 may tarixli Sərəncamı əsasında inşa edilib. Bu, ölkəmizdə sayca 42-ci Olimpiya İdman Kompleksidir.İlham Əliyev Abşeron rayonunun Masazır qəsəbəsində yeni inşa olunan 5 nömrəli tam orta məktəbin açılışında da iştirak edib.



**Xırdalanda 23 binanın təmirinə başlanılması üçün vəsait ayrıldı**

Prezident İlham Əliyev Xırdalan şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

APA-nın məlumatına görə, Xırdalan şəhərində 23 çoxmənzilli binanın əsaslı təmiri işlərinə başlanılması üçün podratçı təşkilatlara zəruri avansın ödənilməsindən ötrü Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Abşeron Rayon İcra Hakimiyyətinə 3 milyon manat ayrılıb. Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

**Abşeron magistral su kəmərlərinin inşasına 10,1 milyon manat ayrılıb**

Prezident İlham Əliyev Abşeron yarımadasında magistral su kəmərləri və qurğularının inşası ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.

APA-nın məlumatına görə, "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" qanunun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 10,1 milyon manat ayrılıb. Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# BŞİH Akif Nağıya "olmaz" dedi

## QAT sədri onlara verilən cavabı niyə gülünc sayır?



**Qarabağ Azadlıq Təşkilatının (QAT) Qarabağ mitinqinin keçirilməsi ilə bağlı Bakı şəhər meriyasına göndərdiyi müraciətə rədd cavabı verilib.**

**QAT sədri Akif Nağı** modern.az-a mitinqin keçirilmə məqsədindən danışıb: "Mitinq keçirməkdə məqsəd Azərbaycan cəmiyyətinin Dağlıq Qarabağla bağlı narahatçılığını ortaya qoymaq idi. Bilirsiniz, danışıqlar çox vaxt istənilən nəticə verməyib, torpaqlar hələ də işğal altındadır. Biz bununla bağlı müxalif mövqedən yox, vətəndaş mövqeyindən çıxış edirik. Dağlıq Qarabağla bağlı hakimiyyət konkret məlumat verməlidir. Nə qədər gözləmək olar? Gözləməyə dəyərmi? Danışıqlardan hansı nəticə əldə etmək olar?

Belə görürük ki, danışıqlara heç bir ümid yoxdur və müharibəyə başlamaq lazımdır. Birinci tələbimiz ondan ibarətdir ki, hakimiyyət müharibəni başlatsın, hamımız gedək bir yerdə torpaqlarımızın müdafiəsinə qalxaq. Əgər hakimiyyət Qarabağı azad edə bilmirsə, buna gücünün çatmadığını etiraf etsin".

**A.Nağı qeyd edib ki, Qarabağ mitinqi ilə əlaqəli Bakı şəhər meriyasının cavabı da gülüncdür:** "Biz noyabrın 2-də Bakı şəhər meriyasına müraciət etmişdik, amma 12 gündən sonra cavab verdilər. Onlar "yox" deməliydilər, amma necə desinlər bilmirdilər. "Yox"u da əsaslandırmaq lazımdır. Bu səbəbdən gülünc bir səbəb irəli sürdülər. "Həm daxildə, həm xaricdə Qarabağla bağlı ciddi işlər aparılır, ona görə də etirazlara, mitinqə ehtiyac yoxdur" dedilər. Hardadır görülən iş? Ortada heç bir şey yoxdur. Onların cavablarının səmimiliyinə inanmıram".

**Müsahibimiz həmçinin Qarabağ mövzusuna toxunmayan müxalifətdən də gileyləib:**

"Biz müxalifətin də mövqeyindən narazıyıq. Onların mitinq və ya digər çıxışlarında Qarabağla, müharibə ilə bağlı tələblər qoyulmur. Sanki onlar nədənsə çəkinirlər. Hesab edirəm ki, bütün mitinqlərdə ən başlıca tələb Qarabağ olmalıdır. Növbəti Qarabağ mitinqi ilə bağlı həlləki düşünürük".

# Bəxtimizə müharibə düşsə



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Ermənistanın işğalçı ordusuna çağırışçı böhranı yaşayır. Düşmən ölkədə bir müddətdir "xalq-ordu" ideyasının ortaya atılması və bu ideyanı qanunilaşdırmək yönündə səylər, ideyanın tərkib hissəsi kimi də tələbələrin hərbi xidmətdən möhlət hüququnun ləğvi şəkk-şübhəsiz, elə çağırışçı ehtiyacı ilə bağlıdır.**

Artıq bir reallıqdır ki, Ermənistanda faktiki, büdcəyə yük olan yaşlı əhali - pensionerlər, bir az da işləyən azsaylı orta təbəqənin təmsilçiləri yaşayır. O da faktdır ki, Ermənistanın olan-qalan əhalisi Rusiya və Türkiyədən gələn pul transfertlərin və lobbinin ianələrinin ümidinə qalıb (qardaş ölkədə erməni əmək miqrantlarının sayı iki il öncəki statistikaya görə, 100 minə yaxın idi).

Azərbaycanda isə tələbələrin əsgərlikdən möhlət hüququ qalır. Çünki onu ləğv etməyə ehtiyac yoxdur. Bu da bizim işğalçı tərəf üzərində daha bir strateji üstünlüyümüzdür. Bu, həmçinin o anlama gəlir ki, müharibə variantında Azərbaycanın Ermənistandan fərqli olaraq, insan resursu problemi olmayacaq. Üstəlik, Ermənistanda tələbələrin hərbi xidmətdən möhlət hüququ aradan qalxandan sonra fərq xeyrimizə daha da böyüyəcək.

Nədən ki, gənclərin xaricə axını güclənəcək. Hər necə olmasa, ağlı başında olan erməni gənci kriminal Sərkisyan rejiminin avantürist ideyaları yolunda "top əti" olmaq istəmir. İrəvanı silkələyən son tələbə etirazlarının qayəsində də bu durur. Ancaq bu, bizim problemimiz deyil. Öz gələcəyini, genofondunu düşünməli olan erməni xalqının dərdidir.

Əksər hərbi ekspertlərə görə, Ermənistanın silah arsenalı, hərbi texnika da xeyli dərəcədə köhnədir. Bu günlərdə erməni ekspertlərdən Ara Papyan açıq etiraf elədi ki, müasir silah-sistemlərlə silahlanan Azərbaycan bu göstərici üzrə də Ermənistanı üstələyir.

Gerçəkdən belədir. Təkcə dediyimiz iki fakt (insan resursu və hərbi-texniki üstünlük) kifayətdir ki, Azərbaycan özünün işğal altındakı ərazilərini qısa zamanda işğalçılardan təmizləsin. Bircə Rusiya faktoru əngəl olmaya təbii ki. Bu xüsusda istefada olan general, Qarabağ savaşının ünlü iştirakçılarından olan Yaşar Aydəmirovun "Yeni Müsavat"a verdiyi müsahibədə bir sitat diqqət çəkir.

General deyib: "Əgər siyasi qərar qəbul olunsa ki, buyursunlar, dövlətlər öz talelərini özlərini həll etsinlər, o zaman Azərbaycan öz taleyini yaxın vaxtlarda həll edəcək. Demirəm ki, bizdə atom bombası var, heç lazım da deyil. Ordumuz qısa müddətdə məsələni həll edəcək. Prezident açıq şəkildə dedi ki, iri dövlətlər Azərbaycanı müharibə etməyə qoymur. Qoysunlar, görəcəklər nə baş verir. Bir neçə birləşmə hücuma keçsə, Dağlıq Qarabağda erməni ordusundan əsər-əlamət qalmayacaq... Allah bizə müharibə qismət eləsin".

Bunu müharibənin ağrı-acısını görmüş, Azərbaycan Ordusunun və işğalçı qüvvələrin gücünü yaxşı bilən general deyir. Şəkk eləməyə dəyməz. Doğru, Allahdan müharibə arzulamaq bir qədər qəddarlıq kimi görünə bilər. Çünki savaş biz tərəfdən də ölüm-itim deməkdir. Gənc insanların, gələcək ailə başçılarının, gələcək ailələrin məhvi deməkdir.

Amma nə edəsən ki, özünü Rusiyanın istehkamına çevirmiş cırtdan Ermənistan ayrı yol qoymayıb, sülh qapılarını möhkəmcə bağlayıb - həm də yenə rusun diktəsi ilə. Bizim davamız isə əlbəttə ki, Ermənistandan daha çox onun arxasındakı Rusiya ilədir - torpaqlarımızın işğal ortağı ilə! İşğal şəriki ola-ola, özünü bizə qərəzsiz vasitəçi, arbitr kimi sırımağa çalışan Rusiya ilə! Üstəgəl, xarici siyasətinin başında erməni birisinin durduğu Rusiya ilə!

Odur ki, işdir generalın arzusu çin olsa, qoy olsun, amma Allah bizə uyğun bir vaxtda müharibə qismət eləsin ki, işğalçının nəfəsini minimum itki ilə və qısa zamanda kəsək İnşallah. Ancaq ona qədər Rusiyadakı anti-Azərbaycan erməni dairələrinin başında duran Lavrovun XİN-dən uzaqlaşdırılmasına nail olmalıyıq.

**Rusdan bizə ədalətli vasitəçi çıxmazsa, ermənidən heç çıxmaz...**



# Pələngin yaşayış şəraiti

Zamin HACI
zaminhaci@gmail.com

**Təhsil Nazirliyi məktəblilərin 5 günlük payız tətilinə çıxdığını elan etmişdir. Zəhmətkeşlərimiz, valideynlər bu günlərdə mümkün qədər ehtiyatlı davranmalı, evə buraxılan məktəblilərin hücumlarından özlərini qorumalıdır. Tətil öncəsi Ceyranbatan bölgəsindən çox acı xəbər aldıq, orada iki məktəbli dalaşarkən araya girib onları sakitləşdirmək istəyən yaşa xadiməni vurub öldürdülər. Bu özü bir daha göstərir ki, məktəblilərimiz canlılar aləminin xüsusi təhlükəli növünə çevrilməkdədir, bu yolda atdıqları addımlara, gördükləri işlərə görə rəhbərliyə, nazirliyə dərin minnətdarlığımızı bildiririk. Çünki elə ölkələr var, orda məktəblilər ümumiyyətlə Qırmızı Kitaba düşübdür. Biri elə Ermənistan. Tamam boşalıbdır. Məktəblərdə hörümçəklər yuva qurub.**

Yeri gəlmişkən, bu yaxında Bakı Heyvanat Bağçasına səfər etmişdim. Orada pələng üçün yaradılan şəraiti görəndə ürəyim açıldı. Bütün başqa heyvanlar 3-4 kvadratmetrlik dar qəfəslərdə müxalifətçilər kimi əziyyət çəksələr də pələng üçün ayrıca 8 kvadratmetrlik (!!!) qəfəs salınmış, qəfəsə müasir işıq dirəkləri, yeni yol, təbii qaz xətti çəkilmişdir. Zooparkın müdiri Aslan Bəbirov müəllim müxbirimizə bildirdi ki, əgər pələng özünü yaxşı aparsa, davranışlarına fikir versə, qəfəsdə olimpiya kompleksi də tikilib, istifadəyə veriləcəkdir. Elə qəfəsin üstündəki qızılı hərflə işlənmiş platin lövhəcik də bundan xəbər verirdi: "Pələngin yaşayış şəraiti dövlət rəhbərliyi tərəfindən yaxşılaşdırılmışdır".

Bəli, bizim ölkədə heç bir uçan-qaçan, sürünən-məməli-suda-quruda yaşayan dövlət rəhbərliyinin diqqət və qayğısından kənarda qalmır. Hamı üçün müvafiq dövlət proqramları işlənib, dünya standartına uyğun qəfəslər, axurlar, tövlələr, akvariumlar, gölməçələr, mağara və oyuqlar tikilib istifadəyə verilibdir. Bircə müxalifət özünə yer tapmır, hərdən gedib "Məhsul" stadionunda cükküldəşirlər. (Bəlkə də onlar vaxtında isti ölkələrə uçub getməliydilər). YAP-ın qurultayında dövlət başçısı bu temaya toxunaraq müxalifətin kitabının bağlandığını açıqladı. Əslində müxalifətin kitabı heç yoxdur, bunun özü də rəhbərlik tərəfindən bir humanizm əlamətidir. Hər halda biz müxalifət liderlərinin kitab yazdığını, kitab oxuduğunu heç görməmişik. 30 il qabaq oxuyublar, o da Anarla Fikrət Qocanı. Hətta Fikrət Qocanı da səhv oxuyublar.

Kimsə deyər nə olsun, iqtidar da heç kitab oxumur. Doğrudur. Ancaq iqtidarın oxumağa ehtiyacı yoxdur. Bir lətifə var bu temada. Çukça kitab yazır, müxbir bundan intervü götürür, soruşur ki, hansı yazıçıları oxuyursunuz. Çukça deyir, mən heç kimi oxumuram. Müxbir təəccüblənir, çukça deyir: "Çukça yazıçıdır, çukça oxucu deyil ki".

Bu arada dost və qardaş Zimbabve camaatından kədərli informasiyalar gəlir, orada deyəsən dahi rəhbər Robert Muqabe müəllimi 90 neçəsə yaşında işdən çıxartdılar. 40 ilə yaxın ölkəni işlət, axırda iki-üç general tankı sürüb səni yıxsın - dözülməz haldır. Özü də Muqabe Zimbabveni çox qəşəng işlədirdi. Örnək üçün, müxalifəti orda tutub məhkəmə eləsinlər, vəkil vəsatət qaldırsın, nə bilim, Avropa Şurası mızıldasın, ABŞ səfiri dızıldasın - belə şeylər qətiyyən yox idi. Hökumət əleyhinə çıxanları tutub əllərini kəsirdilər. Timsaha yedizdirirdilər. Düzü, mən bizim heyvanat bağçasında olarkən pələngin müəyyən qədər ac olduğunu hiss etdim. Bəlkə REAL sədri İlqar Məmmədovu onun qəfəsinə salaq? Avropanın "Məmmədova azadlıq" tələbi də aradan qalxar, pələng beş dəqiqəyə bu beşillik başağrısını həll edər.

Qayıdaq uşaqlar temasına. Tətil günlərində məktəblilərin asudə vaxtını səmərəli keçirməsi üçün valideynlər, qonşular çalışmalıdır ərazini mümkün qədər boş saxlasınlar. Ortalıqda daima cəmdəklər, dən yeyən məktəblilər üçünsə buğda tayaları olmalıdır. Başını smartfona soxmuş, gözü qızarmış, yolda anqıran, parkda meymun səsi çıxaran məktəblilərdən də uzaq durmaq lazımdır.

**Məktəbliləri sevin, onlar bizim gələcəyimizdir.**

# Qarabağa görə Moskvaya gedən Sərkisyana Putin iblis rəsmi verdi

## Politoloq: "Moskva Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması əvəzinə Bakıya elə tələblər irəli sürür ki..."



**"Türkiyə prezidentinin Rusiyaya səfərindən sonra maraqlı hadisə baş verdi. Rəcəb Təyyub Ərdoğanın Rusiyaya səfərindən bir gün sonra Ermənistan xarici işlər naziri Edvard Nalbandyan Moskvaya çağırıldı. İki gün sonra isə Ermənistan prezidenti Serj Sərkisyan Moskvaya getdi.**

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bu fikirləri "Yeni Müsavat"a son zamanlar Qarabağ ətrafında intensivləşən müzakirələri şərh edərkən söylədi. Ekspert eyni zamanda Ermənistan XİN rəhbəri Edvard Nalbəndyanın Rusiyaya gedərək xarici işlər naziri Sergey Lavrov, həmçinin ATƏT-in Minsk Qrupu həmsədrləri ilə görüşməsini də xatırlatdı: "Bu ərəfədə Serj Sərkisyan da Rusiya prezidenti Vladimir Putinlə görüşdü. Rəsmi məlumatlarda bu görüşlərdə iki dövlət arasındakı münasibətlərin hazırki vəziyyətindən danışıldığı bildirildi. Məsələn, Serj Sərkisyanın Rusiyaya səfəri və Vladimir Putinlə görüşü Ermənistanın Rusiyanın mədəniyyət günləri ilə əlaqələndirildi. Buna baxmayaraq, həm Edvard Nalbəndyanın, həm də Serj Sərkisyanın Moskvadakı görüşlərində Dağlıq Qarabağ problemindən də danışıldığını ehtimal etmək olar".

**E.Şahinoğlunn sözlərinə görə, rəsmi İrəvan Kremlin Qarabağ siyasətinin dəyişib-dəyişməcəyi ilə bağlı tərəddüd edir:** "Ermənistan rəsmiləri Ərdoğanın Putinlə qapalı görüşdə nələrin danışıldığından da narahatdırlar. Ermənistanın siyasi elitasında belə bir qorxu var ki, Putin Ərdoğanla dostluğundan çıxış edərək, Qarabağ probleminin həllində Azərbaycanın xeyrinə hansısa addım atmaq istəyə bilər. Ankara qısa müddətdə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini istəyir. Ancaq bu, o demək deyil ki, Ankaranın istəkləri Moskvanın istəkləri ilə üst-üstə düşür". **Politoloqa görə, Moskva münaqişənin o şəkildə həllini istəyir ki, Azərbaycan və Ermənistan Rusiyanın maraqları çərçivəsində qalsın:** "Kreml bu təminatı almayana qədər münaqişənin həllinə maraq göstərməyəcək. Kremlin Azərbaycan üçün şərtləri isə ağırdır. Moskva Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması əvəzinə Bakıya elə tələblər irəli sürür ki, onların yerinə yetirmək Azərbaycanın müstəqilliyini itirilməsi deməkdir. Ona görə də Rusiya ilə Türkiyənin Qarabağ məsələsində anlaşacağını söyləmək çətindir. Halbuki münaqişə sülh yolu ilə həll olunsa, bu hamının xeyrinə olacaq. Buna baxmayaraq, İrəvan nə vaxtsa Moskvanın siyasətində hansısa korrektə edə biləcəyindən ehtiyat edir. Moskva məhz İrəvanı sakitləşdirmək üçün Ərdoğandan sonra həm Ermənistanın xarici işlər nazirini, həm də prezidentini Moskvaya dəvət etdi. Bu, hər dəfə təkrarlanacaq. Ərdoğan-Putin görüşlərindən sonra Moskva hər dəfə İrəvanı sakitləşdirməyə çalışacaq. Bunun üçün də ya Ermənistan prezidenti, ya da xarici işlər naziri Moskvaya çağırılacaq".



**Elxan Şahinoğlu hesab edir ki, Ermənistanın hakimiyyət nümayəndələri Putinin Ərdoğanla nə danışmasından çox, ölkələrindəki siyasi vəziyyətdən narahat olmalıdırlar:** "Erməni gənclər orduda xidmət etmək istəmirlər. Ermənistandakı universitetlərin tələbələri İrəvanda mitinq və yürüşlər keçirərək ali məktəbi bitirdikdən dərhal sonra orduya çağırılmaq istəmirlər. Bunun sadə səbəbi var. Erməni tələbələr Ermənistandan kənarda Dağlıq Qarabağda ölmək istəmirlər. 2016-cı ilin aprel savaşı zamanı canlı itkilər Ermənistan vətəndaşlarını qorxudub. Ermənistan ordusunda əsgər çatışmazlığı mövcuddur. Çünki erməni gənclər Qarabağda ölməkdənsə, ya hərbidən yayınmağa, ya da mühacirətə üstünlük verirlər. Ermənistanda ordudakı bu çətinliklər getdikcə artacaq. Ermənistan hakimiyyəti üçün bu problemi həll etmək çətindir".

Ekspertimizin də fikirləri Rusiyanın Qarabağ münaqişənin həllində o qədər də həvəsli olmadığını, sadəcə baş verə biləcək gərginliyi önləmək üçün hərəkətə keçdiyini söyləməyə əsas verir. Rusiya üçün Qarabağ məsələsinin dondurulmuş vəziyyətdə qalması daha sərfəlidir, nəinki onu hansısa ölkənin maraqlarına uyğun həll etmək. Xatırladaq ki, baş nazir Dmitri Medvedyev də ötən il bölgəyə səfəri zamanı ən yaxşı çıxış yolu kimi "dondurulma" variantını xüsusi vurğulamışdı. V.Putinin Moskvada Sərkisyanla görüşündən ortaya çıxan qənaət də budur ki, Kreml Dağlıq Qarabağ problemini regionda təsir dairəsini qoruyub-saxlamaq naminə ən effektli rıçaq hesab edir.

**Bu arada Rusiya prezidentinin erməni həmkarına verdiyi hədiyyə diqqət çəkib. Erməni mənbələri yazıb ki, Putin Sərkisyanla birlikdə Tretyakov qalereyasını ziyarət edib. Bu zaman isə o, Sərkisyana Mixail Vrubelin "Tamara ruhlu mələk və İblis" adlı rəsm əsərini bağışlayıb. Üzərində iblisin obrazı canlandırılan bu əsər 1995-ci ildə Ermənistandan oğurlanıb Rusiyaya aparılıbmış. Ermənistanın Mədəniyyət Nazirliyi bu əsərin qiymətinin bir neçə min dollar olduğunu açıqlayıb. Sərkisyan Moskvaya "Qarabağın dalınca" getmişdi, Putin onun başını iblisin şəkli ilə aldatdı...**

❑ Cavid TURAN

# "Qarabağ məsələsində Azərbaycana dəstək davam edəcək" - Pakistanın ordu generalı

**Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, ordu generalı Zubair Mahmud Hayatla görüşüb.**

Səfirlikdən "Report"a verilən məlumata görə, görüşdə təcavüzkar Ermənistanın Azərbaycana qarşı vaxtaşırı həyata keçirdiyi təxribatlar, Dağlıq Qarabağ və Kəşmir məsələlərinin BMT-nin qəbul olunmuş qətnamələri əsasında həllinin zəruriliyi, Azərbaycan və Pakistanın silahlı qüvvələri arasında hərbi-texniki sahədə əməkdaşlığın daha da gücləndirilməsi, təcrübə mübadiləsinin artırılması və yeni birgə layihələrin həyata keçirilməsi haqqında fikir mübadiləsi aparılıb, ordu generalı Zubair Mahmud Hayatın Azərbaycana nəzərdə tutulan səfəri müzakirə edilib.



**Ordu generalı Zübair Mahmud Hayat Dağlıq Qarabağ münaqişəsinin və Kəşmir məsələsinin həll olunmaması nəticəsində günahsız insanların daim həyatını itirdiyini, Dağlıq Qarabağ məsələsində Azərbaycana dəstəyin davam edəcəyini və Azərbaycana səfəri zamanı iki ölkənin silahlı qüvvələri arasında əməkdaşlığın daha da genişləndirilməsi və artırılması imkanlarının müzakirə olunacağını vurğulayıb.**



# İrəvanın yeni təlaşı - Azərbaycan Avropa Şurasından çıxsa...

## Prezident İlham Əliyevin təşkilatda üzvlüklə bağlı son açıqlaması işğalçı ölkədə narahatlıq yaradıb; **erməni nəşri:** "Qurumu tərk eləmiş Azərbaycan Ermənistan üçün daha təhlükəli olacaq..."

**Noyabr ayı xeyli dərəcədə Azərbaycanın Avropa Şurası və Avropa Birliyi ilə (AB) münasibətlərinə aydınlıq gətirə bilər. Xəbər verdiyimiz kimi, bir həftə sonra - noyabrın 24-də Brüsseldə AB-nin "Şərq tərəfdaşlığı" sammiti keçiriləcək. Azərbaycan prezidenti İlham Əliyev də sammitə qatılacağını bildirib.**

Sammitə kimi 2 dəfə qurumun böyük nümayəndə heyətləri Bakıda olub, Azərbaycan tərəfi ilə AB ilə imzalanması nəzərdə tutulan çərçivə sənədi ilə bağlı müzakirələr aparıblar. Ölkə başçısı tərəfindən qəbul ediliblər. Bu müzakirələrdə Bakının yanaşması, tələb-şərtləri ilə, o sırada Dağlıq Qarabağla bağlı şərtlə tanış olublar.

Avropa Şurası ilə münasibətlər sahəsində isə vəziyyət bir qədər mürəkkəbdir. Bu da ilk növbədə son vaxtlar Azərbaycan əleyhinə aparılan, erməni dairələrin də qatıldığı qarayaxma kampaniyası ilə bağlıdır. Həmin kampaniya xüsusən də REAL sədri İlqar Məmmədovun həbsi bəhanə edilərək gücləndirilib. Hətta Azərbaycanın Avropa Şurasından çıxarılacağı ilə bağlı təklif səslənib və noyabrın 29-dək Bakıya vaxt verilib.

Rəsmi Bakı təbii ki, bütün bunların fərqindədir. Ümid edək ki, yekun etibarilə optimal çıxış yolu tapılacaq və Avropa Şurası Azərbaycanı itirməyəcək. Hər necə olmasa, bu təşkilat Azərbaycana da lazımdır - ən azı, beynəlxalq tribunalardan biri kimi. Yeri gəlmişkən, bizdə ölkənin bu qurumdan çıxmasını tələb edən siyasətçi, ekspert yoxdur.

Bu günlərdə məsələyə İlham Əliyev bir daha münasibət bildirib. Prezident ölkənin Avropa Şurasına könüllü şəkildə üzv olduğunu xatırladaraq, könüllü şəkildə də oranı tərk edə biləcəyini söyləyib. Sitat: "15 ildən çoxdur ki, biz Avropa Şurasının fəal üzvü olmuşuq. Ancaq son zamanlar bu strukturun baş katibinin (Torbyom Yaqland - red.) fəaliyyəti nəticəsində Azərbaycanla Avropa Şurası arasında süni böhran yaranıb. Bu böhranın səbəbkarı biz deyilik. Biz sadəcə, əleyhimizə aparılan ədalətsiz və ikiüzlü siyasətə qarşı müxtəlif tədbirlər həyata keçiririk. Əgər böhran dərinləşərsə, Azərbaycan öz seçimində sərbəst olacaq".

*****

Maraqlıdır ki, Azərbaycanın dövlət başçısının ölkənin Avropa Şurasından çıxa biləcəyi ilə bağlı son açıqlaması İrəvanda narahatlıqla qarşılanıb. Bu xüsusda 1 in.am nəşrinin siyasi şərhçisi Sarkis Arsruni "Bakının Avropa və Qarabağ istiqamətində hücumu" sərlövhəli məqaləsi həm də erməni siyasi isteblişmenti və ekspert çevrələrinin bu məsələdə nə düşünməsi baxımından önəm kəsb edir.

Musavat.com-un məlumatına görə, müəllif yazır: "Ermənistanda xeyli siyasi xadim və ekspert var ki, Avropa Şurasının Azərbaycana qarşı sanksiyalar qəbul eləməsi və hətta onu təşkilatdan çıxaracağı ilə bağlı az qala, vəcdə gəliblər. Ancaq belə perspektiv gerçəkdə nəinki sevinməyə əsas yaradır, hətta Qarabağ prosesində və regional təhlükəsizlik nöqteyi-nəzərindən müəyyən risklər və təhdidlər vəd edir".

Erməni şərhçi səbəbi belə izah edir: "Məsələ ondadır ki, İlham Əliyevin və Azərbaycanın digər hakimiyyət yetkililərindən ritorikasından asılı olmayaraq və Avropa Şurası qərarlarının imperativ gücdə olmamasına rəğmən, Avropa Şurasının üzvü olan Azərbaycan istənilən halda daha proqnoza yatımlı siyasət yürüdür. Başqa yandan, o halda Azərbaycan Rusiyaya daha çox yaxınlaşacaq ki, bu da obyektiv olaraq, Qarabağ məsələsində Rusiya ilə Azərbaycan arasında antierməni anlaşması ehtimalını gücləndirəcək. Özü də bu, o anlama gəlmir ki, Bakı Moskvanı nəyəsə inandırmalı olacaq. Çox mümkündür ki, Azərbaycan Rusiya üçün Ermənistanla münasibətlərdə və Dağlıq Qarabağ konflikti zonasına rus sülhməramlılarının yerləşdirilməsi üçün bir təzyiq vasitəsi olacaq. Azərbaycan Dubinka rolunda çıxış edəcək".

Müəllif bu kontekstdə daha sonra xarici işlər naziri Elmar Məmmədyarovun dünənki Moskva səfəri öncəsi Bakıda verdiyi açıqlamaya diqqət yönəldib. "Təsadüfi deyil ki, Əliyevin anti-Avropa ritorikası fonunda ATƏT-in Minsk Qrupu həmsədrlərinin ünvanına Azərbaycan XİN-in bacısı Elmar Məmmədyarov da təhdid səsləndirib. Nazir deyib: "Müzakirə olunacaq məsələlər masa üstündədir. Biz istəyirik ki, danışıqlar naminə danışıqlar aparılmasın. Hətta tələb edirik ki, konkret nəticə olsun. Prezidentlərin görüşündə də qeyd edildi ki, danışıqlar intensiv xarakter alsın. Münaqişənin həllinin vaxtı çatıb. Hamı bilir ki, danışıqlar nəticəli olmalı, məcburi köçkünlər geri qaytarılmalı və sülh bərpa edilməlidir. Azərbaycan təkid edir ki, məsələni yerindən tərpədək. Mən Moskvaya bu mövqe ilə gedirəm". Beləcə, Azərbaycan mahiyyət etibarilə həm Avropa, həm də Qarabağ cəbhəsində total hücuma keçib", - deyə erməni şərhçi qeyd edib.

*****

**Düşmən tərəfin Azərbaycan haqda nə düşündüyü əsas olmaya bilər. Çünki Ermənistan onsuz da Rusiyanın girovudur və Qarabağ məsələsində Kremlin diktəsi ilə hərəkət edir. Hərçənd, Moskva hansısa maraqlardan ötrü İrəvanı daha söz ə baxan etmək üçün "Qarabağ kartı"ndan da istifadə edə bilər - ötən ilin aprelindəki kimi. Qalır Moskvanın bu qəbildən istəklərini Azərbaycanın vaxtında və düzgün qiymətləndirməsi - Avropa Şurasında üzv olsaq da, olmasaq da...**

❑ **Siyasət şöbəsi**

# Brüssel sammiti ərəfəsi Bakı ilə gərginlik artır



## **Qabil Hüseynli:** "Sammitdə Azərbaycanın təklənəcəyini düşünmürəm, əksinə..."

**Azərbaycanla Avropa İttifaqı arasında son aylarda gərginləşən münasibətlər getdikcə xoşagəlməz hal alır. Belə ki, noyabrın 24-də Brüsseldə keçiriləcək və ölkə başçısı İlham Əliyevin də iştirak edəcəyi Avropa İttifaqı liderlərinin sammiti öncəsi bir-birinin ardınca Azərbaycan əleyhinə gələn təzyiqlərin sayı çoxalıb.**

Əvvəlcə günlər öncə Avropa Parlamentinin bir qrup deputatı həbsdə olan jurnalist Əfqan Muxtarlının həbsini pisləməklə yanaşı, onun dərhal və qeyri-şərtsiz azad olunması ilə bağlı Azərbaycan prezidentinə müraciət etdilər. Bunun ardınca "Sərhədsiz Reportyorlar" Təşkilatı və daha 37 beynəlxalq hüquq müdafiə təşkilatı adından Avropa İttifaqına Azərbaycanla bağlı məktub göndərildi. Məktub müəllifləri Avropa İttifaqının liderlərini noyabrın 24-də Brüsseldə keçiriləcək sammitə qatılacaq Azərbaycan prezidenti İlham Əliyevə "ölkəsində insan haqlarına basqıları dayandırmaq üçün" təzyiq göstərməyə çağırırlar.

Bütün bunlar Brüssel sammitinə günlər qalmış Avropa qurumlarının Azərbaycana təzyiqlərini artırmaq üçün indidən hərəkətə keçdiklərini açıq şəkildə göstərir. Əslində qalsa, rəsmi Bakının bununla bağlı mövqeyini prezident İ.Əliyev noyabrın 25-də Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi ilə bağlı keçirilən tədbirdə çıxışı zamanı ifadə edib. Azərbaycan prezidenti son aylarda ölkəsinin Avropa Şurasından çıxarılmasını tələb edən, rəsmi Bakıya qarşı olan təzyiqlərin başında dayanan Avropa Şurasının baş katibi Tyorbörn Yaqlandın Azərbaycan-AŞ arasında süni böhran yaratdığını bəyan etdi. Böhranın təşəbbüskarı olmadıqlarını deyən prezident bildirdi ki, bizə qarşı aparılan riyakar və ədalətsiz siyasətlə bağlı adekvat addımlarımızı atırıq. İ.Əliyev həttа böhran dərinləşərsə, ölkəsinin seçimində azad olduğunu qeyd etdi. Sitat: "Biz üzv olduğumuz bütün təşkilatlara könüllü şəkildə daxil olmuşuq və könüllü şəkildə də çıxa bilərik".

Görünən odur ki, bir həftədən sonra keçiriləcək Brüssel sammiti ölkəmiz üçün elə də asan olmayacaq. Ekspertlər Azərbaycan tərəfin indidən sammitə qədər müəyyən addımlar atmasının vacibliyini dilə gətirirlər.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli** Azərbaycan Avropa münasibətlərinin çox kövrək və həlledici məqamdan keçdiyini qeyd etdi: "Bu problemlərin bir qismi subyektiv, qərəzli xarakter daşıyır, Azərbaycanın təklənməsinə doğru yönəlib. Çünki eyni problemləri yaşayan Ermənistana bununla bağlı təzyiqlər və təkliflər irəli sürülmür. Amma bununla yanaşı bir şeyi qeyd etmək lazımdır ki, Azərbaycan Avropa İttifaqı ilə əlaqələri möhkəmləndirmək xətti götürüb. Avropa ilə münasibətləri rəsmi Bakı ən yüksək səviyyəyə qaldırmaq əzmindədir. Bütün bunlarla yanaşı bəzi məsələlərdə, xüsusilə, Avropanın ağzını yağır etmiş, dillərindən düşməyən siyasi məhbuslar məsələsinin çözülməsinə nail olmalıyıq. Çünki bunlar ətrafında Avropa tərəfi gur təbliğat qurub. Adamlarda belə fikir yaranır ki, guya hakimiyyət həbsdə olan filankəsin azadlıqda olmasında ehtiyatlanır. Yəni onun günahları başqa əlamətləri nəzərə alınmadan siyasi çəkisi ilə bağlı fikirlər səslənir. Bu məsələlərə son qoymaq üçün bəzi siyasilərin azad edilməsi işinə başlamaq lazımdır. Məndə olan məlumatlara görə, Azərbaycan bu addımı atmağa hazırlaşır, amma Avropa Birliyi ilə danışıqlardan sonra. Azərbaycan siyasi məhbuslar məsələsində mövqeyini yumşaltmaq niyyətindədir. Baxmayaraq ki, bu şəxsləri ölkəmizdə siyasi məhbus adlandırmırlar, lakin Qərb ölkələrində bu şəxslərə siyasi məhbus kimi yanaşılır. Rəsmi Bakı hədəflər, məqsədlər naminə bu problemləri bir kənara tullamalı, hamını dediyi yox özlərinin bildiyi siyasi məhbus səhifəsini qapatsa daha yaxşı olar".

**Politoloq Brüssel sammitində Azərbaycanı nələrin gözləyə biləcəyinə də toxundu:** "Sammitdə Azərbaycanın təklənəcəyini düşünmürəm. Əksinə Azərbaycan rəhbərinə orada böyük hörmətlə yanaşılacaq. Siyasi məhbuslarla bağlı müəyyən tələblər irəli sürsələr də, Azərbaycanın mövqeyinə hörmət ediləcək".

**Sabiq dövlət müşaviri Azərbaycanın Avropa Şurasından çıxarıla biləcəyi məsələsindən də danışdı:** "Azərbaycan Avropa Şurasından çıxarılmayacaq, rəsmi Bakının özü də çıxmayacaq. Çünki Azərbaycan Avropa Şurasına, Avropa Şurası da Azərbaycana lazımdır. Sadəcə müəyyən gərginlik dövrü yaşanır. Siyasi məhbuslarla bağlı Avropanın tələbləri yerinə yetirildikdən sonra təzyiqlərə heç bir ehtiyacın qalmayacağını, Azərbaycanın Avropa Şurası ilə münasibətlərinin əvvəlki vəziyyətə qayıdacağını düşünürəm. İlham Əliyevin YAP-ın 25 illik yubileyində dedikləri diplomatiyadır. Tərəflər öz mövqelərini əsaslandırmağa çalışmalı, qarşı tərəfin mövqeyini tənqid etməyi bacarmalıdır. Məncə, cənab İlham Əliyev ölkəmizin mövqeyini çox ağıllı bir sürətdə əsaslandırdı və qarşı tərəfin də problemin qızışdırılması yönündəki səylərini ciddi şəkildə tənqid etdi. Bunları normal qəbul etmək lazımdır. Azərbaycan qarşı tərəfin subyektiv münasibəti qarşısında susub dayanmalı deyil ki. Ola bilər ki, daha kəskin formada qarşı tərəfin cavabı verilsin. Diplomatiyada belə cavablar qəbul olunub. Bu baxımdan verilən cavabdan əndişələnməyə dəymәz. Hər şeyin öz yerini alacağı qənaətindəyəm".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 238 (6853) 17 noyabr 2017

# Qarabağ danışıqlarının Moskva raundunda anlaşma

## Azərbaycan və Ermənistan XİN başçıları Vyanada görüşməyə razılıq veriblər; media proseslərin arxasında Ərdoğan-Putin anlaşmasının dayandığını iddia edir

**Xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 16-da ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə Moskvada keçirdiyi görüş başa çatıb. XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib ki, danışıqlar konstruktiv və substantiv xarakter daşıyıb. Azərbaycan tərəfi aparılmış müzakirələrdən razıdır.**

H.Hacıyevin sözlərinə görə, görüş əsnasında təklif olunub ki, 7-8 dekabr tarixlərində Vyanada keçiriləcək ATƏT-in xarici işlər nazirlərinin toplantısı çərçivəsində ATƏT-in Minsk Qrupunun həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirilsin. Azərbaycan tərəfi bu təklifə öz razılığını bildirib: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli və regionda davamlı sülhün və sabitliyin təmin olunması üçün Azərbaycan Respublikası substantiv, məntiqi və konkret danışıqları daim dəstəkləyir". (APA)

Qeyd edək ki, iki gün əvvəl Ermənistan XİN başçısının Moskvada həmsədrlərlə görüşü 3 saat davam etmişdi. E.Məmmədyarovun görüşünün nə qədər davam etdiyi bildirilməsə də, qeyd olunub ki, mətbuata qapalı keçirilən görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki səylər və nazirlər arasında görüşün mümkünlüyü müzakirə olunub. Görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik də iştirak edib.

Bu arada Rusiya prezidenti Vladimir Putinlə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Soçidə noyabrın 13-də keçirilən görüşlə bağlı növbəti məlumatlar yayılıb. "Azadinform" da Ermənistanın tert.am saytına istinadən eyni məzmunlu xəbər yayıb. Bildirilir ki, Rusiya və Türkiyə prezidentləri Soçi görüşündə Dağlıq Qarabağ münaqişəsini müzakirə edib. Qeyd edək ki, prezidentlərin görüşündən öncə Türkiyə mediası görüşdə Dağlıq Qarabağ münaqişəsinin müzakirəsinin mümkünlüyü barədə məlumat yaymışdı.

Görüşdən əvvəl bəyanat verən Ərdoğan bildirmişdi ki, Dağlıq Qarabağ məsələsi ölkəsi üçün əhəmiyyətlidir. O, bu və digər məsələlərdə Türkiyənin Azərbaycana dəstək verəcəyini qeyd etmişdi. Bu mənada Qarabağ danışıqlarının intensivləşməsini Ərdoğan-Putin anlaşması ilə əlaqələndirənlər də var.

Yeri gəlmişkən, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 22-sində yenə də Rusiyaya səfər edəcək. Axar.az xəbər verir ki, bu barədə Türkiyənin "Hürriyyət" qəzeti məlumat yayıb. Məlumata görə, İran dövlət başçısı Həsən Ruhaninin də qatılacağı görüşdə Suriya böhranı müzakirə ediləcək. Mümkündür ki, prezidentlər Qarabağdan da danışsınlar. Çünki Suriya böhranı kimi, Qarabağ münaqişəsi də bölgənin təhlükəsizliyini təhdid edir.

**Politoloq Elçin Mirzəbəyli** "Yeni Müsavat"a bildirdi ki,



Türkiyə-Rusiya münasibətlərinin mövcud vəziyyəti Ankaranın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində bu və ya digər şəkildə iştirakına əsas verir: "Amma bu iştirakın qabarıq şəkildə olacağına inanmıram. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi müstəvisində Ankara-Moskva razılaşması hansısa genişmiqyaslı regional anlaşmanın tərkib hissəsi ola bilər. Bu anlaşmanın digər detalları haqqında konkret fikir söyləmək çətindir. Eyni zamanda bu ehtimalların özü də reallığı əks etdirməyə bilər. 5 rayonun azad edilməsi ilə bağlı məsələni Rusiya mediasının uzun müddətdir ki, tutuquşu kimi təkrarlaması ilkin mərhələdə müzakirələrin nəhz bu kontekstdə aparılacağı ehtimalını yaradır. Digər ehtimallar nə ola bilər? Ermənistanla sərhədlərin açılması, işğala tam son qoyulmadan bu ölkənin regionda həyata keçirilən layihələrdə yer alması, yaxud Ermənistan ərazisindən istifadə olunmaqla hansısa layihələrin həyata keçirilməsimi? Bu detallar bizə aydın deyil. Sülh prosesinin sonrakı mərhələsi necə olacaq? Digər rayonlar və Dağlıq Qarabağın özü ilə bağlı yol xəritəsi nədən ibarət olacaq? Sülhyaratma missiyasında hansı ölkələrin qüvvələri iştirak edəcəklər? Bu proses nə qədər müddəti əhatə edəcək? Həmin qüvvələrin statusu nədən ibarət olacaq və bu status Azərbaycanın suverenliyinə təhlükə yaradacaqmı? Ən əsası bu prosesə verilən zəmanətə nə dərəcədə etimad göstərmək mümkün olacaq? Biz bu sualların dəqiq cavablarını bilmirik". **E.Mirzəbəyli onu da qeyd etdi ki, prosesin Rusiya və Türkiyənin birgə moderatorluğu ilə həyata keçiriləcəyi isə inandırıcı deyil:** "Moskva heç bir halda regiondakı təsir rıçaqlarının hətta cüzi bir hissəsini belə hər hansı bir ölkəyə güzəştə getməyəcək. Türkiyə sadəcə bu prosesə dəstək verə bilər. Əlbəttə, biz ümid edirik ki, bu dəstək ədalətin maksimum bərqərar olacağına xidmət edəcək. Moskvanın münaqişənin tənzimlənməsində açar roluna gəldikdə isə bu rol ATƏT-in Minsk Qrupuna həmsədrlik edən ölkələrin rəsmiləri tərəfindən dəfələrlə dilə gətirilib. Əslində bu real mənzərənin inkar olunması mümkün də deyil. Prosesin sadəcə gərginliyin azaldılmasına xidmət etdiyini düşünmürəm. Bu mərhələ artıq geridə qalıb. Lakin hazırki prosesin yaratdığı reallıq ondan ibarətdir ki, əgər mövcud həll variantları və tənzimləmə prosesi baş tutmazsa o zaman hərbi əməliyyatların genişlənməsi qaçılmaz olacaq. Başqalarını deyə bilmərəm, mən Rusiyanın problemin tam və hərtərəfli həllində maraqlı olduğunu iddia etməyə çətinlik çəkirəm".

❑ **E.PAŞASOY**

# Rza Zərrab məsələsi: Ərdoğana qarşı kompromat savaşı?

## Amerika ədliyyəsi Türkiyə hakimiyyətini həbsdəki iş adamı vasitəsilə sıxır

**Hazırda ABŞ həbsxanada saxlanılan türkiyəli iş adamı Rza Zərrab yenidən medianın gündəm mövzusuna çevrilib. ABŞ-ın İrana qarşı embarqo qərarını pozmaqda, həmçinin bank saxtakarlığı, çirkli pulların yuyulması, ABŞ qanunlarını pozmaq kimi maddələrlə ittiham olunan İran əsilli Rza Zərrabın məhkəmə prosesi davam edir.**

Ancaq noyabrın 11-də gözlənilmədən ABŞ Həbsxanalar Bürosu Rza Zərrabın azad edilməsi ilə bağlı xəbər yayıb. Bu hadisə ən çox Türkiyədə böyük rezonans doğurub. Türkiyə XİN ABŞ-a nota verərək Zərrabın harada olduğu ilə bağlı məlumat tələb edib. Notada həyat təhlükəsizliyinin narahatlıq doğurduğu qeyd edilib. Məsələ ondadır ki, bu ilin sentyabrında da Zərrabın azad edilməsi barədə xəbərlər yayılmış və daha sonra bunun texniki bir yanlışlıq olduğu bildirilmişdi. Bu dəfə vəziyyət daha dramatik olub. Noyabrın 11-də ABŞ Federal Həbsxanalar Bürosunun saytında "09135-104 nömrəli məhkum Rza Zərrabın noyabrın 8-də azadlığa buraxıldığı" haqda məlumat yer alıb. Məlumatda Zərrab barəsində "34 yaşlı, ağ dərili, kişi" bilgiləri də yer alıb.

Bundan sonra mediada Zərrabın yoxa çıxdığı, yerinin də məlum olmadığı və türkiyəli vəkilləri ilə görüşmədiyi barədə məlumatlar yayılıb. Eyni zamanda amerikalı vəkilləri də Zərrabla görüş barədə məlumat verməyib. Bu isə şübhələrə səbəb olub. Bütün bu şübhələr sonunda Türkiyə XİN-in notasına səbəb olub. Notaya cavab olaraq ABŞ hökuməti "Zərrab federal həbsxanada saxlanılmaqda davam edir" kimi açıqlama yayıb. Eyni zamanda prokurorluq noyabrın 27-də Zərrabın Andlılar Heyəti qarşısında məhkəməyə çıxarılacağı, eləcə də bu günlərdə daha bir prosesinin olduğunu bildirib.

Xatırladaq ki, İrana tətbiq olunan embarqolar zamanı Türkiyə üzərindən gizli ticarət həyata keçirərək "qara bazar"da İran nefti və qazının satışını təşkil edən şəbəkənin Türkiyədəki əsas "kasalarından" biri kimi tanıdılan Rza Zərrab 2016-cı ildə ABŞ-a səfəri zamanı Florida ştatında həbs olunub. Rza Zərrab ABŞ-ın İrana qarşı embarqo qərarını pozmaqda, həmçinin bank saxtakarlığı, çirkli pulların yuyulması, ABŞ qanunlarını pozmaq kimi maddələrlə ittiham olunur və haqqında 50 milyon dollar cərimə və 90 il həbs tələbi var. Noyabrın 27-də Rza Zərrab Andlılar Məhkəməsinə çıxarılacaq.




Ancaq bu iş, necə deyərlər, yalnız Zərrabla yekunlaşmır. Bunlardan ən mühümü Türkiyənin dövlət bankı olan "Halkbank"ın baş direktorunun müavini Mehmet Hakan Atilladır. M.H.Atilla bu il martın 27-də Nyu-York Hava Limanında həbs olunub. O da Zərrab kimi İrana qarşı ABŞ embarqosunu pozmaq və Amerika maliyyə sistemini aldatmaqda ittiham olunur. Ancaq o, ittihamları rədd edir. Nyu-York cənub dairə prokuroru Hakan Atilla barəsində 2 milyon dollar cərimə və 50 ilə qədər həbs cəzası tələb edir.

Qeyd edək ki, Rza Zərrab prosesinin dövlət ittihamçısı Riçard Bermandır. Berman bu prosesə 2017-ci ilin aprelində təyin olunub. O, məhkəmə proseslərini barışıq yolu ilə həll etməyə və prosesi sürətlə yekunlaşdırmağa çalışan bir prokuror olaraq tanınır. Ancaq Berman Hakan Atillanın zaminə buraxılması təklifini rədd edib. Türkiyə rəsmiləri isə nyu-yorklu prokurorun F.Gülən qruplaşmasına yaxın olduğunu bəyan edib.

Qeyd edək ki, Rza Zərrabı Amerikada "vəkillər ordusu" müdafiə edir. Bunların arasında Nyu-Yorkun keçmiş bələdiyyə başçısı Rudolf Culiani, eləcə də Corc Buş zamanında ABŞ-ın ədliyyə naziri postunu tutmuş Maykl Makeysi də var. Bu adamların Türkiyə hakimiyyəti ilə əlaqələrinin olması ABŞ mediasına bir sıra yazılar dərc olunub.

Rza Zərraba qarşı ittiham aktını hazırlayan ilk prokuror isə Hindistan əsilli prokuror Pret Bharara idi. Ancaq daha sonra Bhrara Tramp tərəfindən vəzifəsindən çıxarılıb.

Göründüyü kimi, Rza Zərrab işi kifayət qədər siyasiləşib. Söhbət bu işlə bağlı ittiham aktında Türkiyə rəsmilərinin də adının getməsidir. Çünki Qərb mediasının yazdığına görə, ittiham aktlarında Rza Zərrabın atası, eləcə də Türkiyədə 2013-cü il 17-25 dekabr arasında baş verən həbs işləri də var. Bu isə Türkiyədə siyasi hakimiyyətə qarşı ittihamlara yol aça bilər. Türkiyə və bəzi Qərb mediası Rza Zərrab işinin böyüyüb Türkiyə rəsmilərinə qədər gedib çıxması mümkündür. Söhbət İrana qarşı embarqonun gizli şəkildə pozulması və İran enerji məhsullarının - neft və qazın qara bazara Türkiyə üzərindən çıxarılması, eləcə də nağd olaraq qızıl vasitəsilə aparılan ödəmələrin yenə də Dubay üzərindən Türkiyə vasitəsilə İrana çatdırılmasıdır. Bu prosesdə böyük bir gizli şəbəkənin olması ehtimal edilir. ABŞ-da hazırkı Türkiyə hakimiyyəti ilə soyuq münasibətləri olan rəsmilər Rza Zərrab işinin arxasında Türkiyə siyasi dairələrinə yaxın fiqurların üzə çıxarılması və ittiham dairəsinin genişlənməsində maraqlıdır. Yeri gəlmişkən, Türkiyə mediası Zərrab işində yeni bir şahidin də əlavə olunduğunu yazıb. Ancaq hələlik bu şəxsin kimliyi və adı açıqlanmır.

**Rza Zərrab işi Vaşinqtonun əlində Ankaraya qarşı ən ciddi "kozırlardan" biridir. Zərrabın buraxılması ABŞ və Türkiyə arasında ən yüksək səviyyədə anlaşma ola bilər ki, hazırda bu ehtimal xeyli zəifdir. Ancaq ehtimal ki, Zərrab işində hələ yeni adlar və ittihamlar ortaya çıxacaq və bunun vasitəsilə Ankaraya qarşı kompromat olaraq istifadə olunacaq.**

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 239 (6853) 17 noyabr 2017

# “Əvvəl inam yaratmaq lazımdır, bu isə ən ağır prosesdir”

## **Arzu Nağıyev:** “Əgər Sülh Platformanın iş istiqaməti buna uyğun qurularsa və Ermənistan rəhbərliyi də müvafiq addımlar atarsa, müəyyən irəliləyiş əldə etmək olar”

**Ermənistanın işğalçı siyasət yürütməsinə, qeyri-konstruktiv mövqeyinə, danışıqlara sadəcə vaxt qazanmaq vasitəsi kimi yanaşmasına rəğmən, Azərbaycan sülhməramlı missiyasını davam etdirir. Elə keçən ilin dekabrında Bakıda təsis olunan Sülh Platforması da ölkəmizin ən ağır problemlərin belə, qanlı yolla deyil, dinc vasitələrlə həllinə üstünlük verdiyini bir daha təsdiqlədi.**

Düzdür, hələlik Azərbaycanın atdığı bu cür ciddi addım beynəlxalq təşkilatlar və aparıcı güc mərkəzləri tərəfindən yetərincə dəyərləndirilmir, ancaq Bakı hələ ki öz prinsiplərinə sadiqdir, işğalçıya torpaqlarımızı sülh yolu ilə azad etmək üçün yaranmış fürsətdən yararlanmaq şansı verib. Əks təqdirdə, silahlar işə düşəcək ki, bu da bölgədə fəlakətli vəziyyət yaratmaqla yanaşı, Ermənistanın bir dövlət kimi mövcudluğunu da sual altında qoyacaq. **Politoloq Arzu Nağıyev**lə söhbətimiz elə Sülh Platforması ətrafında oldu.

***-Arzu bəy, oktyabrın sonunda Ermənistan-Azərbaycan Vətəndaş Sülh Platforması Tbilisidə təsis edildi. İlk dəfədir ki, 5 erməni, 5 azərbaycanlı, habelə ATƏT Minsk Qrupuna daxil olan digər 9 ölkənin hərəsindən 1 nəfər olmaqla 19 nəfərlik İdarə Heyəti formalaşdı. Bundan başqa 14 ölkəni təmsil edən 29 nəfərlik Ekspertlər Şurası fəaliyyətə başlayıb. Bu isə sülh yaratma prosesində yeni situasiya deməkdir. Münaqişənin sülh yolu ilə həllinə yönəlik ilk belə formatı necə dəyərləndirirsiniz?***

- Düşünürəm ki, ən yüngül müharibədənsə, ağır sülh daha xeyirlidir. Yəni dünya praktikasında da illərlə müharibə aparan dövlətlər sonda müəyyən bir kompromisə gəlirlər. Məlumdur ki, hər hansı platformanın yaradılmasına baxmayaraq, münaqişənin həlli Azərbaycanın BMT tərəfindən tanınan sərhədləri çərçivəsində həll edilməlidir. Bununla belə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin təmsil etdiyi cəmi üç dövlət ancaq deklorativ bəyanatlardan o yana keçmirsə, bu format daha da effektli ola bilər. Yəni artıq 3 dövlətin deyil, artıq 10-15 dövlətin nümayəndəsi bu platformada cəmləşib. Bir tərəfdən bu, yaxşı haldır.

***- Necə bilirsiniz, vətəndaş cəmiyyəti tərəfindən belə bir yanaşmanın tətbiqi konfliktin həllinə yeni impuls verə bilərmi? Təsis qurultayında ciddi qərarlar qəbul olunub. Bunlardan biri Tiflis, İrəvan və Bakıda Platformanın ofislərinin yaradılması haqqında qərar. Sizcə, Platforma hər üç ölkədə fəaliyyətini qura biləcəkmi, hazırda buna şərait varmı?***

- Qeyd edildiyi kimi, vətəndaş cəmiyyətinin yanaşması münaqişənin həllinin ancaq sülh yolu ilə həllini nəzərdə tutur və burada əsas məsələ məsləhət və təkliflərdən ibarət olmalıdır. Bu təkliflər isə hakimiyyət orqanlarına təqdim edildikdən sonra müəyyən nəticələr əldə etmək olar. Yəni bu platformaların qərarları tövsiyə və təklif ola bilər, əsas qərar isə təbii ki, hakimiyyətindir. Ofislərin yaradılmasına gəldikdə isə Tiflis neytral biri ərazi sayıla bilər, Bakıda və İrəvanda isə əsas məsələ nümayəndələrin təhlükəsizliyi və işləmək üçün şəraitin yaradılmasıdır. Bunlar həllini taparsa, problemlər olmayacaq.

***- Münaqişənin tarixində ilk dəfədir ki, ermənilər və azərbaycanlılar bir araya gələrək hər iki ölkənin prezidentlərinə müraciət edərsə, onları sülh danışıqlarında konkret nəticə əldə etməyə çağırıblar. Sizcə, nə baş verir və bunun danışıqlar prosesinə nə kimi təsiri ola bilər?***

- Hər hansı formada müraciətdən asılı olmayaraq, Azərbaycan prezidenti cənab İlham Əliyev mövqeyini daima bütün beynəlxalq tribunalardan da dəfələrlə səsləndirib. Bu mövqe Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, işğalçı ordunun ərazilərimizi tərk etməsidir. Əgər Sülh Platformasının iş istiqaməti buna uyğun qurularsa və Ermənistan rəhbərliyi də müvafiq addımlar atarsa, müəyyən irəliləyiş əldə etmək olar. Bu isə ATƏT Minsk Qrupu üçün vətəndaş cəmiyyətinin işinin necə qurulması ilə bağlı bir nümunə olar. Platformanın məşvərətçi status alması da maraqlı məsələdir və bu artıq BMT və ATƏT-in razılığı ilə olmalıdır.

***- Müşahidələr göstərir ki, ATƏT-in Minsk Qrupu fəaliyyət göstərdiyi 25 il ərzində vətəndaş cəmiyyəti institutları ilə ciddi təmasda olmayıb. Platforma ATƏT-in Minsk Qrupunun nəzdində məşvərətçi iştirak hüququ almaq üçün həmsədrlərə müraciət edib. Bu maraqlı və yeni yanaşmadır. Bu təklifi necə dəyərləndirirsiniz? Belə bir təklif qəbul olunarsa, Platformanın vasitəçilik missiyasına nə kimi dəstəyi ola bilər?***



> **“Söhbət sülhdən gedirsə, artıq biz diktə edən tərəf kimi çıxış edirik”**

- Əsas dəstək işğal olunan ərazilərdə monitorinqlərin, təbliğat işinin aparılması, hərbçilərlə görüşlər, əsir-girovlarla bağlı arayışların hazırlanması, atəşkəs rejimi ilə bağlı müəyyən arayışların tərtib edilməsi, mədəniyyət və tarixi abidələri ilə bağlı məlumatların çatdırılması ola bilər.

***- Danışıqları aparan hər iki ölkənin rəhbərləridir. Dəfələrlə bildirilib ki, ictimaiyyətin rəyi, dəstəyi olmadan hər hansı qərar qəbul etmək çətindir. Platforma hər iki prezidentə sülh prosesində dəstəkçi olmaq, qarşılıqlı etimadın yaradılması üçün köməyini əsirgəməmək məqsədilə müraciətlər edilib. Sizcə, prezidentlər bu dəstəyi necə qiymətləndirəcəklər? Ümumiyyətlə prezidentlərin belə bir dəstəyə ehtiyacları varmı?***

- Qeyd edildiyi kimi, Azərbaycanla bağlı ərazi bütövlüyü çərçivəsində münaqişənin həlli Azərbaycan prezidentinin və xalqının bir-birini tamamlayan ümumi mövqeyidir və bu dəfələrlə dövlət başçısı tərəfindən də səsləndirilib. Məlum məsələdir ki, Azərbaycan hərbi yolla öz ərazilərimiz bərpa etməyə daima hazır və qadirdir. Bunun bariz nümunəsini 2016-cı ilin aprel hadisələri də sübut etdi və bu Azərbaycan xalqının bir zəfər günü kimi tarixə yazıldı. Söhbət sülhdən gedirsə, artıq biz diktə edən tərəf kimi çıxış edirik. Təbii ki, dövlət qurumları ilə yanaşı bu məsələlərdə vətəndaş cəmiyyətlərinin də mövqeyi vacibdir.

***- Qurultayın qərarı var ki, Ermənistanda və Azərbaycanda ictimaiyyətlə görüşlər keçirilsin. Bu görüşlərin keçirilməsi mümkündürmü? Nələr edilməlidir ki, bu görüşlər baş tutsun?***

- Düşünmürəm ki, bu görüşlər üçün elə böyük maneə ola bilər. Sadəcə olaraq təbliğat və maarifləndirmə işi çox yüksək səviyyədə aparılmalıdır ki, əsas məram və məqsəd aydın olsun.

***- Hər iki cəmiyyətdə böyük nüfuza malik din xadimləri- erməni katolikosu Qaregin və Bütün Qafqazın Şeyxi Allahşükür Paşazadə münaqişənin həlli istiqamətində addımlar atmaq üçün görüşürlər. Heç kimə sirr deyil ki, barışıq üçün din xadimlərinin müstəsna rolu var. Platforma hər iki din xadiminə müraciət edərək bu fəaliyyətlərini vətəndaş cəmiyyəti ilə koordinasiya etməyi, diqqətlərini bu istiqamətdə daha da artırmağı xahiş edib. Din xadimləri sülh yaratma prosesində nə edə bilərlər?***

- Din xadimləri çox böyük işlər görə bilərlər. Məlumdur ki, Ermənistan bu gün daha çox bir kilsə dövlətidir desək, yanılmarıq. Yəni kilsə bu dövlətin verilən hər bir qərarında mühüm rol oynayır və dövlət deyə bilmədiyi bir sıra bəyanatları kilsənin vasitəsilə edir. Azərbaycanda da Bütün Qafqazın Şeyxi Allahşükür Paşazadənin böyük nüfuzu var və Platforma bundan istifadə edə bilər. Ən uğurlu addım isə humanitar məsələlər ola bilər, bu əsasən əsir və girovlarla, yaralılarla, şəhid ailələri ilə bağlı ola bilər, yəni onlarla görüşlərin təşkil edilməsi və s.

***- Arzu bəy, bu faktdır ki, ATƏT-in Minsk Qrupuna cəmiyyətdə inam qalmayıb. Ümumiyyətlə “Minsk Qrupu həmsədrləri bu problemin həllində maraqlıdılarmı” sualı çoxdan yaranıb. Müşahidələr göstərir ki, münaqişənin həlli nə Fransa, nə də ABŞ prezidentlərinin gündəliyində deyil. Sizin fikrinizcə, vətəndaş cəmiyyətinin prosesə qoşulması, Sülh Platformasının yeni yanaşması qeyd edilən ölkələrin rəhbərlərini hərəkətə gətirə bilərmi?***

-ATƏT-in Minsk Qrupu çox təəssüf ki, öz işini tam şəkildə qura bilmədi. İkili standartlar, münaqişəyə müxtəlif prizmalardan yanaşmalar bu qurumun fəaliyyətini heçə endirdi. Missiya kimi özlərinə ancaq görüşlərin təşkil edilməsi və kritik vəziyyətlərdə bəyanatlarla çıxış etmək götürdülər. Bu isə effekt və ya müsbət bir nəticə vermədi. Buna görə də artıq başqa bir formata ehtiyac duyulur. Zənnimcə, Platforma müəyyən səlahiyyətlərə malik olmalıdır ki, təmsil olunan dövlətlərin rəhbərlərinə təsir edə bilsin.

***- Arzu bəy, ümumiyyətlə, sizin üçün xalq diplomatiyası nədir? Bu formatla Ermənistan-Azərbaycan münaqişəsinin həlli perspektivlərini necə görürsünüz?***

- Xalq diplomatiyası dövlət strukturları və qeyri-hökumət təşkilatlarının birgə işinin nəticəsində mühüm əhəmiyyətli məsələlərin həllində istifadə edilən bir fəaliyyət növüdür. Yəni tək bir Platforma yaratmaqla bu münaqişənin həllində müsbət nəticələr əldə etmək olmaz. Burada hamı, bütün strukturlar maraqlı olmalıdır və səbəb və məqsəd aydın olmalıdır. Bu olarsa, müəyyən irəliləyişə mütləq nail olunacaq.

***- Etimadın yaradılması, xalqlar arasında əlaqələrin qurulması və digər bu kimi təşəbbüslər nə kimi fayda verər? Sizin şəxsi töhfəniz nədən ibarət ola bilər? Nə kimi təklifləriniz var?***

- Qarşılıqlı inam nə qədər çox olsa, münaqişənin həlli yaxınlaşar. Əvvəl bu inamı yaratmaq lazımdır, bu isə ən ağır prosesdir. Qarabağ döyüşlərini tək kitab-dəftərdən bilməyən, o torpaqları müqəddəs bir məkan sayan və demək olar ki, hər qarışına, problemlərinə bələd olan şəxs və Azərbaycan vətəndaşı kimi münaqişənin həllinin istər hərbi, istər diplomatik, istərsə də xalq etimadı yolu ilə həlli üçün bu qurumlarla iş qurmaq vacib məsələdir və buna yardımçı olmaq lazımdır.

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 239 (6853) 17 noyabr 2017

# 2018-ci il dövlət büdcəsi: sosial gərginlik olacaq, yoxsa...

## Ekspertlərin baxışları fərqlidir

**Milli Məclisin komitələrində 2018-ci il üzrə dövlət və icmal büdcəsi layihələrinin müzakirəsi başa çatıb. Büdcə zərfinə daxil olan qanun layihələri 5 komitənin - Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları, Gənclər və idman, Regional məsələlər və Mədəniyyət komitələrinin birgə iclasında müzakirəyə olunub və plenar iclasa tövsiyə olunub.**

Diqqət çəkən məqamlardan biri də odur ki, bu büdcə layihəsi müzakirələrdə kifayət qədər tənqidlə qarşılandı. Xüsusən deputat Qüdrət Həsənquliyev büdcə layihəsini kəskin tənqid edib və Neft Fondunun vəsaitlərinin bu qədər xərclənməsinin əleyhinə olduğunu, real sektorun inkişafının vacibliyini vurğulayıb: "Əhali sayı Azərbaycanın yarısı qədər olan Norveçin büdcəsi 221 milyard dollardır, bu ölkənin Neft Fondunun vəsaitləri 1 trilyon dollara çatıb. Yəni biz bu cür ölkələrdən nümunə götürməliyik. Bizim büdcənin həcminə baxanda, hər şey aydın olur".

**Q.Həsənquliyev ciddi islahatlar aparılmadığı, radikal addımlar atılmadığı halda vəziyyəti dəyişməyin mümkünsüzlüyünü bildirib. O hesab edir ki, iqtisadiyyatın həcmi azdır**: "Ona görə də qeyri-neft sektorunda 2.4 faiz artım olanda, sevinirik. Amma bu rəqəm iqtisadiyyatın sürətli inkişafını təmin etmir".

Qeyd edək ki, 2018-ci il dövlət üçün prezident seçkiləri baxımından əhəmiyyətli bir ildir və bu ilin dövlət büdcəsi də daha həssas yanaşma tələb edir.



Növbəti ilin büdcə layihəsi ilə bağlı tənqidlərə cavab verən **Vahid Əhmədov** bildirdi ki, 2018-ci il dövlət büdcəsi builki dövlət büdcəsindən çox fərqlənir: "Həm ayrılan vəsaitlərin həcmi, həm də inkişafa yönəlmiş xərclərlə əlaqədar 2018-ci ilin büdcəsi daha əlverişlidir. Məsələn, 2017-ci ildə ÜDM cəmi 16 milyard manat idisə, 2018-ci ildə 20 milyarddır. O cümlədən xərclər də bu il 16 milyard idisə, indi 20 milyard manatdan çoxdur. Yəni gəlirlərdə də, xərclərdə də 20 faiz artım var. 2017-ci ildə əsaslı vəsait qoyuluşu cəmi 3,5 milyard manat idisə, 2018-ci ildə 4,9 milyard manatdır. Bütün bu rəqəmlərə baxanda fərq böyükdür. 2018-ci ildə dövlət büdcəsinin 36,6 faizi sosial xərclərə yönəlib. Büdcədə müsbət cəhətlər çoxdur və büdcə sistemi haqqında qanuna uyğun hazırlanıb.

Ancaq müəyyən məsələlər var ki, bizi narahat edir və biz bununla bağlı təkliflərimizi vermişik. Əsasən bank məsələsidir, pul-kredit siyasətidir, qiymətlərlə bağlı məsələlərdir. Bizim bu sahədəki təkliflərimiz də həyata keçirilmir. Bankların sağlamlaşdırılması prosesinin ləng getməsi, o sistemdə böyük problemin olması, əhalinin bağlanan banklardan vəsaitlərini ala bilməməsi kimi ciddi məsələlər var ki, biz bunları qaldırmışıq".

**Büdcənin məhz neft gəlirlərinin xərclənməsi üzərində qurulmasına gəlincə, Vahid Əhmədov bildirdi ki, bu məsələni Milli Məclisdə qaldırıb:** "Biz 2017-ci ildə Neft Fondundan 6,1 milyard manat vəsaiti büdcəyə transfer etmişdiksə, 2018-ci ildə 9,2 milyard manat vəsait ayrılıb. 3,1 milyard vəsait əlavə ayrılıb. Qeyri-neft sektorunda müəyyən inkişaf olsa da, əsas güc yenə də qeyri-neft sektorunun üzərinə düşür. Biz istəyirik ki, bu fond saxlanılsın və iri beynəlxalq layihələrə xərclənilsin. Biz həmişə deyirik ki, neft amili büdcə üçün riskdir. Neftin qiyməti və ya onun hasilatında yaranan problemlər xaricdən büdcə üçün risk yaradır. Biz bu məsələni qaldırmışıq ki, biz Dövlət Neft Fondunun müəyyən hissəsini qoruyub gələcək nəsillər üçün saxlamalıyıq".

**İqtisadçı-ekspert Natiq Cəfərli** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əsas tənqid hədəfi bu büdcənin islahat büdcəsi olmamasıdır: "Bu büdcə yenidən köhnə modelə qayıdışdır, yəni təmir-tikinti sahələrinə dövlət investisiyası yatırmaqla iqtisadi artıma nail olmaq və bu yolla sosial gərginliyin azalmasına nail olmaqdır. Çünki büdcədə artım olan sahələrə baxdıqda, 4 milyard manata yaxın əsas artım məhz təmir-tikinti işlərindədir. Bu ilə nisbətən təqribən 60-70 faiz artım müşahidə olunur. Bu maddə üzrə xərclər təqribən 9 milyard manata çatdırılır. Büdcənin az qala yarısı təmir-tikinti xərclərinə yönələcək. Amma sosial xərclərin artırılmasında ciddi bir dəyişiklik yoxdur. Hətta yeni təqaüd islahatlarının həyata keçirilməsi nəzərdə tutulur, sosial müavinətlərin getdikcə ləğv olunacağı söylənilir. Yəni büdcəni sosial yönümlü bir büdcə adlandırmaq olmaz".

**İqtisadçının sözlərinə görə, hökumətin düşüncəsi ondan ibarətdir ki, sosial layihələri təmir-tikinti layihələri ilə birləşdirsin:** "Yəni tikinti sahəsi multiplikativ effekti olan bir sahədir. 10 ildən çoxdur ki, bu sxem Azərbaycanda işləyir. Təmir-tikinti xərclərinin artırılması yolu ilə müvəqqəti də olsa çoxlu sayda iş yerlərinin yaranması və daha çox insanların işə cəlb olunmasını düşünürlər. Mən bunu səhv yanaşma hesab edirəm. Ancaq hər halda hökumət gələn il üçün nəzərdə tutduğu xərc maddələrinə baxdıqda yenidən köhnə modelə, yəni böyük neft pulları dövründə istifadə olunan modelə qayıtmaq və iqtisadi aktivliyi bu yolla təmin etmək istəyirlər. Bu dayanıqsız bir modeldir, yalnız neft qiymətlərinə hesablanmış bir modeldir. Son zamanlar neft qiymətlərinin qalxması və 60 dolları keçməsi hökuməti sanki ümidləndirdi. Ona görə də 2018-ci ilin büdcəsinə islahat büdcəsi demək olmaz. Deputatların tənqidinin də əsas məğzi bundan ibarət idi ki, bu büdcə islahat büdcəsi və sosial yönümlü büdcə deyil".

**Qeyd edək ki, noyabrın 21-də layihənin müzakirəsi gözlənir.**

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycanı bürüyən zəhər kimi xəstəlik-şəkər...

## Həyat tərzi düzgün olmadığı üçün ölkəmizdə bu xəstəlik artır

**Respublika Endokrinoloji Mərkəzin direktor müavini Babək Salek 14 noyabr - Ümumdünya Diabet Gününə həsr edilmiş mətbuat konfransında hər il dünyada şəkərli diabet xəstələrinin sayında 15 faiz artım olduğu deyib. O bildirib ki, 2015-ci ildə dünyada 242 milyona yaxın diabet xəstəsi var idisə, son proqnozlara əsasən 2040-cı ildə bu rəqəm 625 milyona çatacaq. B. Salek qeyd edib ki, hazırda Azərbaycanda 242 min diabet xəstəsi qeydiyyatdadır: "Son 9 ayın statistikası göstərdi ki, bu il diabet xəstələrinin sayında 12 faiz artım olub. Respublikada 1556 uşaq şəkərli diabet xəstəsidir. Onun 553 nəfəri Bakıdadır. Həmin uşaqlar insulin analoqları ilə təmin olunur. 2014-cü ildə 90 uşağa insulin pompası qoyulub".**



Həkimin sözlərinə görə, I tip şəkərli diabet əsasən 25-30 yaşa qədər gənclərdə rastlanır. İkinci tip diabet isə daha çox yaşlı adamlarda olur. Şəkərli diabet xəstəliyinin səbəblərini sadalayan direktor müavini vurğulayıb ki, bu xəstəliyə əsasən "fast food" qidaları, pəhriz saxlamamaq, hərəkətsizlik və genetik amillər səbəb olur: "Atada şəkər xəstəliyi varsa, uşaqda rastlanma ehtimalı çoxdur. Bəzən şəkərli diabet xəstəsi olan hamilə qadınlar narahat olduğu üçün bizə müraciət edir. Həmin qadınların cifti 9 ay nəzarətdə saxlanmalıdır. Bundan başqa, hamiləlik zamanı şəkər tutan qadınlar da olur. Hamiləlikdən sonra şəkər xəstəliyi özlüyündə sağalır. Ancaq dünyada hər 7 uşaqdan biri bu cür diabetlə dünyaya gəlir".

B. Salek bildirib ki, insanlar çox susuzluq, tez-tez sidiyə getmək, iştahasızlıq, halsızlıq kimi hallardan şikayətlənirsə, mütləq həkimə müraciət etməlidir.

Qeyd edək ki, xəstəlik zamanı fəaliyyət göstərən hüceyrələr 20 faizə qədər azalır və ya tam sıradan çıxırlar.

**1-ci tip şəkərli diabet əmələ gəlməsi səbəbinə görə 2 yerə bölünür: autoimmun şəkərli diabet və idiopatik şəkərli diabet.** Autoimmun şəkərli diabet immun sistemin pozğunluğu nəticəsində yaranır. Bu vaxt orqanizmdə Langerhans adacıqlarının insulin hasil edən hüceyrələrini zədələyən antitellər yaranır. Autoimmun prosesin inkişafına virus infeksiyaları, bəzi toksik maddələrin təsiri (nitrozaminlər, pestisidlər) səbəb olur. İdiopatik şəkərli diabetin səbəbləri isə hələ ki, tibb elminə məlum deyil.

**2-ci tip şəkərli diabetin əmələgəlmə səbəbləri isə irsi meylilik və xarici faktorlardır.** Təəssüflər olsun ki, tibb şəkər xəstəliyinin effektiv müalicəsinə hələ nail ola bilməyib. Pasient qanda şəkərin miqdarını idarə edə bilərsə, şəkərli diabet xəstəlik yox, həyat tərzinə çevrilə bilər, bununla da ağırlaşmaların qarşısını almaq olar. Bu həyat tərzi isə diabetin tipindən asılıdır.

*Maraqlıdır, bu xəstəliyin əmələ gəlməsində əsas amil nədir, stress yoxsa qidalar?*

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** şəkərli diabet xəstəliyinin yaranmasında həm qidaların, həm də həyat tərzinin böyük rolu var: "Həddən ziyadə qidalanma, xolesterinli, yağlı qidaların çoxluğu, az hərəkətlilik, artıq çəki şəkərli diabetə səbəb olar faktorlardır. İnsanlar düzgün həyat tərzi yaşamırlar. Çox alkoqol qəbulu, siqaret çəkmək də diabeti şərtləndirən amillərdir. Məsələn, bizim bir millət olaraq əksəriyyətimizin yeməyi axşama təsadüf edir. Hamı işdən gedib axşam evdə çoxlu yemək yeyir, sonra da hərəkət etmir, gəzmir. İnsan gündə 6 kilometr piyada gəzməlidir. Bunun heç birini biz etmirik. Sonra şadlıq evlərində tədbirlər, toy mərasimləri axşama təsadüf edir. Restoranlar "fast food"lar hamısı axşama təsadüf edir. Axşam insanlar həddən ziyadə qidalanandan sonra gəlib evdə uzanır. Bunlarda damarların vaxtından əvvəl kirəcləşməsinə, artıq çəkiyə, şəkərli diabetə gətirib çıxarır. Şəkərli diabetin bu gün Azərbaycanda çoxalmasının səbəbi bizim həyat tərzimizdir".

**Xəstəliyin tam müalicəsi məsələsinə gəlincə isə A.Qeybulla bu istiqamətdə ciddi işlər getdiyini dedi:** "Xəstəlik başlandığı təqdirdə artıq mədəaltı vəzi quyruq hissəsində olan hüceyrələr var ki, onlar şirə ifraz edir. Həmin insulinin miqdarı azalır və yaxud çəki həddən artıq çox olduqda hüceyrələrin, toxumaların qlükozaya qarşı tolerantlığı yaranır. Bütün bu səbəblər də orqanizmin düzgün çalışmamasından, yəni əzələlərin düzgün hərəkət etməməyindən yaranır. Təsadüfi deyil ki, şəkərli diabet xəstəliyi başlayanlara gəzmək tövsiyə olunur. Gəzdikdə əzələlərə qlükoza lazım olur və o qandan sərf edir. Amma bu xəstəliyin bir mənalı müalicəsi yoxdur. Hazırda mədə altı vəz hüceyrələrinin nəqli istiqamətində ciddi işlər gedir. Bu hüceyrələr çox incə hüceyrələrdir və stressə tez məruz qalırlar və buna görə də insulinin produksiyasında problemlər yaranır. Amma əsas məsələlərdən biri bizim həyat tərzimizdir. Həyat tərzi düzgün olmadığı üçün bu xəstəlik artır".

❑ **Günel MANAFLI**

**Noyabrın 15-i gecə saatlarında Azərbaycanın bir neçə rayonunda zəlzələ baş verib. Zəlzələdə ölüm-itim halları olmasa da, bir sıra rayonlarda dağıntılara səbəb olub. Zəlzələ baş verən ərazilərdə yeraltı təkanların davam etdiyini deyən Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişlinin sözlərinə görə, zəlzələdən sonra həmin ərazidə enerji boşalmaları gedir, ona görə yeraltı təkanların olması normaldır: “Episentrdə 30-dan çox avterşok qeydə alınıb. İlk dəfə baş verən güclü zəlzələdən sonra gecə saatlarında bir dəfə 3 bal gücündə zəlzələ hiss olunub.**




# Zəlzələ ciddi dağıntısız ötüşdü-icra hakimiyyətləri isə milyonluq ziyandan danışır

## Baş seysmoloq: “Necə olub ki, episentrdə yerləşən seysmik stansiyada adi çat da əmələ gəlməyib, amma ətrafda evlər uçub?”

Digər yeraltı təkanlar zəif olub. Episentrin əvvəlki sakit vəziyyətinə qayıtması üçün enerji boşalmaları davam edəcək. Q.Yetirmişli əlavə edib ki, həmin zəlzələ fəsadlar törədə bilən zəlzələ deyildi: ”Yerin 25 km dərinliyində olan və o gücdə olan zəlzələ dağıdıcı gücə malik deyil. Bizim Ağdamda olan seysmik stansiyamız episentrdə yerləşir. Stansiyada adi çat da əmələ gəlməyib. Normal tikililərdə bu zəlzələ heç bir fəsadlar törədə bilməzdi. Kənd yerində zəif divar, tövlə tikirlər, onlarda çatlar əmələ gələ, lap divar tökülə də bilər. Amma normal tikililər üçün heç bir qorxu yoxdur".

Q.Yetirmişli Azərbaycanda baş verən zəlzələnin İranda baş vermiş zəlzələ ilə heç bir əlaqəsi olmadığını deyib.

Qeyd edək ki, Ağdamda zəlzələ nəticəsində bəzi evlər qəzalı vəziyyətə düşüb. Məlumata görə, zəlzələnin təsiri daha çox Bərdə və Tərtər rayonlarında müşahidə edilib. Ağdam Rayon İcra Hakimiyyətindən bildirilib ki, zəlzələ nəticəsində 127 evə və 1 məktəb binasına ziyan dəyib. Tərtər rayon İcra Hakimiyyətindən verilən məlumata görə, zəlzələ rayonun İsmayılbəyli və Evoğlu kəndlərinə daha çox ziyan vurub. Rayon ərazisində 9 evə ziyan dəyib, 3 ev isə dağılıb. Bundan başqa, bir tövlə tamamilə dağılıb və zəlzələ zamanı tövlədə heyvanları yemləyən kənd sakini dağıntılar altında qalaraq xəsarət alıb. Bərdə rayon İcra Hakimiyyətindən isə bildirilib ki, zəlzələ 100-yə yaxın evə ziyan vurub.



*Qeyd edək ki, bir sıra insanlarda bu zəlzələnin korrupsiyaya yol açacağı düşüncəsi var. Bu düşüncəyə səbəb olan amillərdən biri də Q.Yetirmişlinin verdiyi açıqlamadır. Necə olur ki, Ağdamda olan seysmik stansiyada episentrdə yerləşməsinə baxmayaraq adi çat da əmələ gəlməyib, amma evlər uçub?*

Xatırladaq ki, bir neçə il bundan öncə Zaqatalada baş verən zəlzələ zamanı ciddi korrupsiya halları olduğu haqda məlumtlar yayılmışdı.

*Maraqlıdır, bu zəlzələ də korrupsiyaya yol aça bilərmi?*

**Deputat Fazil Mustafa** bildirdi ki, hər şey, hətta yol qəzası, yaxud da uçqun, daşqın, sürüşmə də korrupsiyaya yol aça bilər. Əgər korrupsiya niyyəti varsa, bunun qarşısını almaq mümkün deyil: “İstənilən səviyyədə, hansısa bir formada bunu gerçəkləşdirmək olar. Amma elə məsələ var ki, insanların hansısa bir faciəsi, fəlakəti üzərində hər hansısa bir korrupsiya əməllərini gerçəkləşdirmək istəyən insanların özləri həyatlarında bunun acı nəticələrini görürlər. Bu çox ağır bir şeydir. Bir var ki, durub günün günorta çağı hansısa bir ümumi əməliyyatlardan, fəaliyyətlərdən korrupsiya elementləri ilə pul qazanasan, bir də var ki, insan faciəsindən yararlanaraq, evləri dağılmış insanların çıxılmaz vəziyyətindən istifadə edərək belə bir addım atasan. Bu o addımı atan insanların həyatında unudulmaz acı izlər buraxır. Ona görə də normal şüuru, düşüncəsi olan hansısa bir məmur bu addıma maraqlı görünməməlidir. Bura döyüş bölgəsidir və burada baş verən hadisələr insanların müəyyən dərəcədə gözü qarşısındadır. Ən azı insanlar fəal olaraq daha normal şəkildə hansısa bir neqativ prosesin qarşısını ala bilər. Ümumi şəkildə hamı bir birinin probleminə eyni qaydada həssaslıq göstərməyə çalışsa, məncə korrupsiyanın özü bu hallarda mümkün ola bilməz”.

**İqtisadçı ekspert Natiq Cəfərli** isə bildirdi ki, dövlət tərəfindən aparılan və yaxud da maliyyələşdirilən istənilən təmir tikinti işində korrupsiya ola bilər: “Beynəlxalq araşdırmalar, daxildə olan uzun müddətli vəziyyət də göstərir ki, korrupsiya üçün ən münbit şərait təmir-tikinti işləridir. Həm orada işlərin həcminin daha çox göztərilməsi imkanları var, həm materialların alış qiymətinin şişirdilməsi imkanları var. Dövlət orqanları hansı ki, təmir-tikinti ilə məşğul olan və yaxud da sifarişlidirlər şirkətlərlə danışığa gedib əlavə vəsait qəbul edə bilirlər. Amma sırf zəlzələ oldu deyə korrupsiya olacaq demək yanlışdır. Zəlzələ olmayıb başqa bir təbii fəlakət olacaqdısa və təmir-tikinti işləri başlayacaqsa, burada korrupsiya mənbələri yaranacaq. Ona görə də təbii hadisələrdən daha çox dövlət çalışmalıdır ki, bu cür satın almaların, təmir tikinti işlərinin həyata keçirilməsində şəffaflıq təmin olunsun. Sistem elə qurulmalıdır ki, dövlət tərəfindən maliyyələşdirilən təmir-tikinti işlərində heç bir korrupsiya hallarına yol verilməsin. Əgər zəlzələ hansısa bir rayona zərər yetiribsə, həmin rayonun icra strukturları çalışacaqlar ki, vəziyyəti daha pis təqdim etsinlər və dövlət büdcəsindən daha çox vəsait alsınlar. Nə qədər çox vəsait alırlarsa, bir o qədər çox da onların şəxsi maraqları təmin olunur”.

❑ **Günel MANAFLI**

# Azərbaycan əhalisinin sayı 10 milyon nəfərə yaxınlaşır

**İlin əvvəlindən ölkə əhalisinin sayı 65 292 nəfər və ya 0,7% artaraq 2017-ci il oktyabr ayının 1-i vəziyyətinə 9 milyon 875 min 273 nəfərə çatıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bir kvadrat kilometrə düşən əhalinin sıxlığı 114 nəfər olub, əhalinin ümumi sayının 53%-ini şəhər, 47%-ini kənd sakinləri, 49,9%-ini kişilər, 50,1%-ini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-sentyabr aylarında ölkə üzrə 107 min 459 doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,7 təşkil edib. Doğulan körpələrin 53,1%-i oğlan, 46,9%-i isə qız uşaqlarından ibarət olub. Körpələrdən 1918-i əkiz, 33-ü üçəm doğulanlardır.

Cari ilin 9 ayı ərzində ölkədə 43089 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,9 təşkil edib.

Qeydiyyat şöbələri tərəfindən 2017-ci ilin yanvar-sentyabr aylarında 47 min 388 nikah və 10 min 977 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,5, boşanmaların sayı isə 1,5 olub.

**Bu ilin 9 ayı ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 2299 nəfər Azərbaycana gələn, 1377 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 922 nəfər təşkil edib.**

# 15-ci günün mistikası - Həriri, Ruzvelt, Muqabe...



**Samir SARI**

**Hər ayın 15-ci gününün mistik cazibəsi olduğunu yadıma o gün (noyabrın 15-də) tanınmış mistika ustası, əziz qardaşımız Həmid Herisçinin dostu Azər Ayxan saldı, dedi ki, nə işdirsə, hər ayın 15-də dövlət çevrilişlərinə cəhd, sui-qəsdlər olur, bunların baş tutanı, baş tutmayanı var.**

Yadıma saldım ki, bəli, ayın 15-i ilə bağlı öz ölkəmizdə də xeyli bənzər haqq-hesablar olub.

Məsələn, 1995-cü ilin 15 martında XTPD (OMON) hakimiyyətə qarşı qiyam qaldırıb, çevrilişə cəhd edib, amma cəhd uğursuz alınıb, iki gün sonra isə faciəvi hadisələr baş verib.

Ondan 3 il əvvəl, 1992-ci ilin 15 mayında AXC parlamentin üzərinə yürüş edərək yenidən hakimiyyətə gəlmiş Mütəllibovu 2-ci dəfə devirib.

Bu hadisədən 1 il 1 ay sonra, iyunun 15-də Heydər Əliyev parlament sədri seçilərək AXC-nin hakimiyyətinə rəsmən son qoyub. Yeri gəlmişkən, həmin gün ölkəmizdə Milli qurtuluş günü kimi qeyd edilir.

15 oktyabrı xatırlayası olsaq, minlərlə müxalifətçi “oy-oy-oy” deyəcək, çünki 2003-cü ilin həmin günü paytaxtda gerçəkdən də inqilabfason hadisələr baş verib.

Yeri gəlmişkən, indiki prezident İlham Əliyev 2008-ci ilin 15 oktyabrında ikinci dəfə prezident seçilib, amma bu dəfə dava düşməyib.

15 iyul desəm, yadınıza Türkiyədə baş verən çevriliş cəhdi düşəcək. Daha dəqiqi, bu tarix hələ yaddaşlardan çıxmayıb, çünki hər gün bu barədə danışılır.

15 noyabrda baş verənləri də bilirsiniz, Zimbabvedə 40 ilin diktatoru Muqabeni aşırdılar. Amma bu barədə bir az sonra ayrıca danışarıq.

Hələlik 15 dekabrdan başlayaq. Bu tarix boşdur, həmin gün heç bir ölkədə dövlət çevrilişi və ya çevrilişə cəhd olmayıb.

Amma 15 yanvarda zırıltı hadisələr olub: İngiltərə kraliçası I Yelizaveta taxta çıxıb (1559), Müəmmər Qəzzafi Liviyanın baş naziri olub (1970).

15 fevral terrorçu Cüzeppe Zinqaranın ABŞ-ın yenicə seçilmiş prezidenti Franklin Ruzveltə sui-qəsd cəhdi etməsilə (1933), Livanın baş naziri Rafiq Həririnin qətlə yetirilməsi (2005) ilə, bir də PKK terror təşkilatının lideri Abdullah Öcalanın həbsiylə (1999) əlamətdardır. Aponu gedib Keniyadan təyyarəyə basıb gətirmişdilər, hələ trapla düşərkən aşağı ətrafının qorxusundan demişdi, türkləri çox sevirəm, bayrağınıza qurban olum.

15 martı yuxarıda dedik, 15 apreldə Litvanı Rusiya imperiyasına birləşdiriblər (1795), 15 mayda, 15 iyunda və 15 iyulda baş verən haqq-hesablardan da xəbəriniz var. Gələk 15 avqusta, görək nə olub.

Həmin gün Hindistan Böyük Britaniyadan (1947 ), Konqo isə Fransadan (1960) müstəqillik qazanıb, PKK da eyni niyyətə düşüb, Türkiyə əleyhinə terror fəaliyyətinə başlayıb (1984).

15 sentyabrda qardaş Türkiyədən köməyə gələn ordu Bakını erməni banditlərdən azad edib.

15 noyabrda isə əvvəlcə Con Kennedi (1960), sonra isə Corc Buş (ata) ABŞ prezidenti seçiliblər.

İki gün əvvəl isə Muqabe bu günü daha da “şərəfləndirdi”. İndən belə Zimbabvedə hər ilin 15 noyabrı çox adam bayram edəcək, bəziləri də yasa batacaqlar.

Birincilər deyəcəklər ki, bu gün milli qurtuluş günüdür, köhnə hökumətin vaxtında camaat çöllərdən evinə yığılmırdı, eyzən dərələrdə həşərat yığırdı.

İkincilər də deyəcəklər ki, bu gün Zimbabve əsl müstəqilliyini itirib, xarici qüvvələrin oyuncağı olub.

İkincilər belə deməklə qalmayacaqlar, təbliğat aparacaqlar ki, Muqabenin vaxtında vəziyyət daha yaxşıydı, hamı varlıydı, milyonçuydu.

Gerçəkdən də Zimbabvedə ən kasıb adamın dollar milyonçusu, hətta milyarderi olması həqiqətdir. Əgər kimsə cəmi bir yumurtanı bazara çıxarıb sata bilirsə, avtomatik olaraq bir-iki milyard dollar qabağa düşür (Zimbabveninin pul vahidi dollardır, kursunu isə deməsək yaxşıdır - 100 dollar xırdalasan, trilyonlara gedib çıxır).

Təzə hökumət yerini möhkəmlətmək üçün şayiə buraxacaq ki, Masvinqo əyalətində neft tapılıb, Manikalenddə isə almaz yataqları aşkarlanıb. Xalq 3-4 il sakitcə gözləyəcək ki, görsünlər, nə olur.

**Hərçənd buna o qədər də ehtiyac yoxdur, 40-a dözən 41-ə də dözər, Muqabenin diktatorluğuna 40 il dözən xalq növbəti rəhbərə də dözəcək - əgər o da dəmir yumruqlu biri olsa. Yox, növbəti rəhbər zəif olsa, demokratlıq eləsə, 13 aydan sonra devirəcəklər. Həmin tarix düz 15 dekabra düşür və həmin gün, yuxarıda dediyimiz kimi, hələlik boşdur.**

YENİ MÜSAVAT
N 239 (6853) 17 noyabr 2017

# "Milli maddə"də dəyişiklik - varlı uşaqları həbsdən qurtulur

## 234-cü maddənin yumşaldılması narkotik asılılığından əziyyət çəkən imkanlı övladlarını da "qoruyacaq"

**Azərbaycanda cəza çəkənlərin əgər yarısı deyilsə də, xeyli hissəsi narkotiklə əlaqəli tutulanlardır. Türmələrdə məhbusların "milli maddə" adlandırdıqları CM-in 234.1-ci - (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə) bir müddət əvvəl bir qədər "yumşaldılıb". Hümanistləşdirilən təkcə "milli maddə" deyil. Milli Məclisə cinayət qanunvericiliyinə çoxsaylı dəyişikliklərlə bağlı təkliflər paketi təqdim edilib və oktyabrın 20-də qanun layihəsi təsdiqlənib. CM-ə təklif edilən dəyişiklər çoxdur, bir qismi cinayət məsuliyyətindən və cəzadan azad olunmaya aiddir.**



Belə dəyişikliklərdən biri də "Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətdən azad etmə" adlanır. Yeni 74-1-ci maddəyə görə, CM-in 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma) maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində bu xəstəliklə əlaqədar stasionar qaydada tibbi xarakterli məcburi tədbirləri tətbiq edilir.

Yəni satış məqsədi olmadan narkotikdən şəxsi istehlak üçünistifadə edən şəxs hüquq mühafizə orqanı əməkdaşı tərəfindən saxlanıldığı halda həbsə deyil, məcburi müalicəyə göndəriləcək. Şəxs tam sağalması nəticəsində tibbi xarakterli məcburi tədbirlər ləğv edilərək məhkəmə tərəfindən cinayət məsuliyyətdən azad olunacaq. Qanunvericiliyin bu sahədə liberallaşdırılmasının vacibliyi barədə illərlə müzakirələr aparılıb. CM-ə edilən əlavə bu istiqamətdə ilk addımlardan biridir. Narkomaniyanın sosial, iqtisadi və digər səbəbləri var. Mövcüd dəyişikliklər bu bəlanın kökünü kəsmək üçün yetərli deyil. Belə fikirlər də var ki, varlı uşaqlarının azadlıqdan məhrum edilmələrinin qarşısının alınmasına da müəyyən mənada xidmət edir.

2010-ci ildə narkoman məmur övladları haqda "Qaçqınkom" sədri, eyni zamanda Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının rəhbəri Əli Həsənovun açıqlaması da olmuşdu.

**O dövrdə böyük rezonans doğurmuş açıqlamadan sitat:**

"Mən milli təhlükəsizlik nazirindən xahiş edəcəyəm ki, çox ciddi bir arayışın hazırlanması barədə tapşırıq versin. Bir gün o uşaqların da siyahısını çıxaracağam. Narkotik istifadəçilərinin kimlərin uşaqları olduğunu açıqlayacağam. Əmin olun ki, çalışıb çıxaracağam. Valideynlər də öz uşaqları ilə məşğul olmalıdırlar. İmkansızlar narkotik ala bilməz. Çünki narkotiklər ucuz deyil, çox bahadır".

Ucuz olmayan, kasıb balasının ala bilməyəcəyi narkotiklərin alıcıları varlıların övladlarıdır.

Deməli, dəyişikliklərdən də ilk növbədə varlı uşaqları yararlanacağı haqda fikirlər də əbəs deyil.

**Tanınmış vəkil Əsabəli Mustafayev** CM-nə, xüsusilə də 234.1 maddasəinə dəyişiklikləri müsbət qiymətləndirənlərdəndir.

Ə.Mustafayev deyir ki, əhalinin hansı kateqoriyasını əhatə etməsindən asılı olmayaraq mövcud dəyişikliklər narkotik aslılığı xəstəlindən əziyyət çəkənlərin vəziyyətini yaxşılaşdırır və müalicə olunmasına yol açır: "Biz vəkillər, həkimləd həmişə demişik ki, əgər şəxs narkomandırsa, bu xəstəlikdən əziyyət çəkirsə, belə bir şəxsi xəbsxana əvəzinə müalicəyə göndərmək daha məqsədəmüvafiqdir. Narkomanı həbsxanaya göndərməklə onun vəziyyəti daha da pisləşir. Özü də narkomaların həbsdə saxlanması digər məhbuslara da neqativ təsir göstərir. Narkomaniya psixoloji cəhətdən keçicidir. Belə şəxsləri müalicə etmək lazımdır. Dəri zöhrəvi, QİÇS xəstəliyinə tutulan şəxslər həbsə göndərilmədiyi kimi narkomaniyadan əziyyət çəkənləri də həbsə göndərmək düzgün deyil. Xəstə müalicə olunmalıdır. Xəstəni cəzalandırmaq xəstəliyin müalicəsi demək deyil. Narkomanları müalicə edib cəmiyyətə göndərmək lazımdır".

**Ə.Mustafayev deyir ki, mövcud dəyişikliklələ nəzərdə tutulur ki, narkotikdən istifadə edən şəxs ilk dəfə saxlanılırsa, müalicəyə göndərilir. Vəkil bildirir ki, belə şəxslər qanunun verdiyi şansdan sui-istifadə edəcəklərsə, 2 dəfə eyni əmələ görə real həbsə göndəriləcəklər. Ə.Mustafayev hesab edir ki, qanun bir qədər də humanistləşdirilməlidir:** "Yəqin ki, hazırda qanunun tətbiqindən sonra durum təhlil olunacaq və görülsə ki, qanunun bu şəkildə tətbiqi real nəticələr verdi, mümkündür ki, gələcəkdə yenə də CM-ə dəyişikliklər olacaq. 2-ci dəfə narkotikə qurşananlara da bu şans veriləcək".

**Qeyd edək ki, prezidentin cinayət qanunvericiliyinə təklif etdiyi çoxsaylı dəyişikliklər Cinayət Məcəlləsi və Cinayət-Prosessual Məcəlləsini əhatə edib. Konkret olaraq, Cinayət Prosessual Məcəlləsinin 25-dən, Cinayət Məcəlləsinin ümumi hissəsinə 30-dan, xüsusi hissəsinə isə 70-dən çox dəyişiklik Milli Məclis tərəfindən təsdiqlənib. Ümumən dəyişiklilklərin əksəriyyəti normaldır, cəzaların yüngülləşdirilməsinə xidmət etdiyi haqda fikirlər var.**

❑ E.MƏMMƏDƏLİYEV



## Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə onda Dr Vaiz Səmədov sizə komək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması 8-10 yaşından sonra.

**Doktor V.Səmədovla saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.


## Atasını yandıraraq öldürən şəxsə 20 illik həbs cəzası

**81 yaşlı atasını amansızlıqla öldürən şəxs növbəti dəfə hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində atasını öldürməkdə təqsirləndirilən İlyas Mehdiyevin cinayət işi üzrə məhkəmə prosesinə hakim Novruz Kərimov sədrlik edib.**

Məhkəmədə İlyas Mehdiyevə son söz verilib. O, məhkəmədən çıxış üçün vaxt istəyib.

Qeyd edək ki, dövlət ittihamçısı İ.Mehdiyevin 20 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Növbəti məhkəmə iclası noyabrın 21-nə təyin edilib.

İttihama görə, ata ilə oğul arasında ailə münaqişəsi zəminində mübahisə yaranıb. İlyas Mehdiyev atasından evi satmasını tələb edib. Uzun müddət ata ilə oğul arasında davam edən söz-söhbətlər sonda dəhşətli cinayətlə nəticələnib. Atasının razılığını ala bilməyən İlyas Mehdiyev onu öldürmək qərarına gəlib.

Hadisə baş verən gün maşını ilə evə gələn İlyas qapını döyərkən içəridən bağlı olduğunu bilib. O, atasının evdə olduğunu və yatdığını bilib. İlyas daha sonra maşınından benzin götürərək evə gəlib. Qapını növbəti dəfə döyəndə atası qapını açıb. Eyni mövzu üstündə tərəflər arasında mübahisə başlayıb.

İlyas butulkada olan benzini atasının üstünə tökərək onu yandırıb. Evi də yandırmaq istəyən İlyas benzinin qalanını evə tökərək od vurub. Bundan sonra İlyas evi tərk edib.

Qeyd edək ki, hadisə bu il yanvarın 31-də baş verib.

Bildirək ki, mərhum 81 yaşlı İmdad Mehdiyevin digər oğlu Mehdi Mehdiyevdir. O, Əfv komissiyasının üzvü, "Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin sədridir.

İlyas Mehdiyev Cinayət Məcəlləsinin 120.2.2-ci (xuliqanlıq niyyəti ilə adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) və 186-cı (əmlakı qəsdən məhv etmə və ya zədələmə) maddələri ilə təqsirli bilinir.

❑ İlkin MURADOV

## Bankın qadın filial müdiri məhkəmədə həbs edildi

**Külli miqdarda mənimsəmədə ittiham edilən şəxslər hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə təqsirləndirilən "Dəmir Bank" ASC-nin Bayıl filialının sabiq müdiri Fərəh Rəşadətli, xəzinadarı Tamamgül Xanlarova və bankın əməkdaşı Fariz Qarayevin cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən iclasda təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Məlum olub ki, T.Xanlarovanın və digərlərinin hər birinin himayəsində azyaşlı uşaqları var.

Prosesdə zərərçəkmişlər vəsatət qaldıraraq təqsirləndirilən şəxslərin barəsində ev dustaqlığı qətimkan tədbirinin dəyişdirilməsini və məhkəmə zalından həbs edilmələrini istəyiblər.

Məhkəmə müşavirədən sonra qərar qəbul edib. Qərara əsasən təqsirləndirilənlərdən Fərəh Rəşadətli məhkəmə zallnda həbs edilib.

Qeyd edək ki, F. Rəşadətli Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda törədildikdə), 179.3.2-ci (mənimsəmə; külli miqdarda törədildikdə), 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı), F.Qarayev və T.Xanlarova isə 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə ittiham edilirlər.

Cinayət işində 8 nəfər zərərçəkmiş var. İttihama görə həmin şəxslərin 3 milyon manata yaxın pulu əkə keçirilib.

**Xatırladaq ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hazırlıq iclasında cinayət işinin ibtidai istintaqa qaytarılması barədə qərar qəbul edilmişdi. Hakim bildirib ki, ibtidai istintaq zamanı bir sıra pozuntulara yol verilib. İş yenidən araşdırılaraq, məhkəməyə göndərilib.**

❑ İ.MURADOV



## "Bakcell"in 4G xidməti artıq Gəncədə!

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti böyük məmnuniyyətlə 4G LTE xidmətini Gəncə şəhərində istifadəyə verir. Mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən "4G Sür@" xidməti yerləşdikləri məkanda genişzolaqlı internetə yüksək sürətli çıxış imkanına malik olmaq istəyən istifadəçilər üçün nəzərdə tutulub.**

**"Biz Gəncə şəhərində yaşayan «Bakcell» abunəçilərinə yüksək keyfiyyətli 4G LTE xidmətlərini təqdim etməkdən qürur hissi duyuruq. Artıq Bakı və Abşeron yarımadasının abunəçilərimizlə yanaşı, bizim Gəncədəki abunəçilərimiz də «Bakcell» şirkətinin təqdim etdiyi yüksək keyfiyyətli və sürətli mobil internetdən yararlana biləcəklər. Azərbaycan bazarında 4G xidmətlərinə olan tələbat və 4G texnologiyasını dəstəkləyən cihazların sayı əhəmiyyətli dərəcədə artmaqdadır və biz hesab edirik ki, LTE xidmətlərini ölkənin bölgələrində istifadəyə vermək vaxtıdır" deyə, «Bakcell» şirkətinin baş icraçi direktoru Nikolai Beckers bildirib.**

**«Bakcell» şirkəti tərəfindən təqdim olunan və 225 Mbit/s çatan sürəti dəstəkləyən 4G/LTE texnologiyası vasitəsilə abunəçilər öz mobil qurğularında multimedia xidmətlərindən, mobil televiziyadan, videokonfranslardan, monitorinq sistemlərindən, müxtəlif onlayn oyunlardan daha rahat istifadə etmək imkanına malik olurlar.**

**Hazırda «Bakcell» həm smartfon, həm də noutbuk və kompüter istifadəçiləri üçün nəzərdə tutulmuş müxtəlif 4G tarif paketlərini təklif edir. «Bakcell»in Gəncədəki abunəçiləri təklif olunan müxtəlif variantlar arasından seçim edə bilərlər ki, bunlardan da biri aylıq cəmi 10 AZN-ə təklif olunan 5 GB-lıq 4G internet paketidir.**

**«Bakcell»-in 4G kommersiya təklifləri barədə daha ətraflı məlumatı https://suret.«Bakcell».com/en/offers/3g/smartfonlar_ucun ttps://suret.«Bakcell».com/en/offers/3g/smartfonlar_ucun səhifəsindən əldə etmək olar.**

**Bu gündən etibarən Gəncə şəhərində yaşayan «Bakcell» abunəçiləri şirkətin Müştəri Xidməti Mərkəzində 3G SİM kartlarını pulsuz olaraq 4G SİM kartlarına dəyişə bilərlər.**

**Bir müddət əvvəl «Bakcell» mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan «P3 Communications» şirkəti tərəfindən Azərbaycanda «Best in Test» (sınaq nəticələrinə görə, ən yaxşı) adına layiq görülüb.**

**6500-dən artıq baza stansiyası sayəsində «Bakcell» şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93% -ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir.**

YENİ MÜSAVAT
N 239 (6853) 17 noyabr 2017




**Cümə söhbətləri**

**Səfər ayı yekunlaşmaq üzrədir. Bu ayın son günləri, Uca Allahın bəşəriyyəti düzgün yola dəvət etmək üçün məbus etdiyi, ona olan məhəbbətdən aləmləri xəlq etdiyi Əziz Peyğəmbərimizin (s) dünyadan köçdüyü gün ilə səciyyələnir.**

# Ey insan, düşməninlə də ədalətlə davran...



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Peyğəmbərimizin (s) bu dünyada son günləri ümmət üçün ağrılı məqamlarla müşaiyət olunurdu. Belə ki, ədalət və bərabərlik prinsipləri üzərində bərqərar olunan İslam icmasını xaqanlıq, imperiya kimi görmək istəyən müəyyən qüvvələr bu günlərdə özlərini təzahür etməyə başlamışdılar. Sonradan ümmət üçün yaranan məşəqqətlərin, çətinliklərin bünövrəsi o günlərdə qoyulmuşdu. Əlbəttə ki, bütün cidd-cəhdlərə baxmayaraq, İslamın mahiyyətini, cazibəsini, gözəlliyini, İlahi təlim olaraq kamilliyini aradan aparmağa müvəffəq olmadılar. Bugünkü bəhsimizi məhz dinimizin bu təməl prinsiplərindən birinə - ədalətə həsr etmək istərdik.

## Zülm və ədalət nədir?

Bir çoxları zülm anlayışına öz düşünmə tərzinə uyğun baxmağa meyillidirlər, əslində isə buna geniş spektrdə baxılmalıdır. İstər fərdi, istər ailə həyatında, istər ictimai, siyasi, iqtisadi və bir çox digər müstəvilərdə hər bir şey ki, öz yerində deyil, olmalı kimi deyil - hamısı zülmdür. Mümkün deyil, insan bir iddiada bulunsun ki, bəs mən siyasi həyatda zülmü qəbul edirəm, amma ailə həyatımda etmirəm və s. Burada bir kompleks yanaşma mövcuddur - insan zülmün hər hansı bir təzahürü ilə barışmamalı, ən azı qəlbində buna qarşı olmalıdır. Özü zülm etməməli və digərlərinin də zülm etməsinin bacardıqca qarşısını almalıdır.

Zülmün əksi olan ədalət mövzusuna toxunaq. Qeyd etmək lazımdır ki, bir fəlsəfi kateqoriya olaraq, ədalət «hər şeyin öz yerində olması», «müəyyən bir şeyin yaranma fəlsəfəsinə uyğun tətbiqi» mənasını verir. «Ədalət» məfhumu - dinin əsas sütunlarındandır. İnsanların dinə gəlişinin əsas, ana xətlərindəndir. Hər bir insanın daxilində ədalət hissi vardır. Və araşdırmalar göstərir ki, insanların dinə-imana gəlişinin əsas səbəbi ədalət axtarışıdır, daha doğrusu, məhz dində İlahi ədalətin tapılması amilidir.

Əhli-Beytdən (ə) nəql edilmişdir: «Ədalət - pak və münəzzəh Allahın bir mizan tərəzisidir ki, onu yaradılmışların, insanların arasında qoymuşdur və haqqı yaşatmaq üçün qərar vermişdir».

Mübarək hədisdə bir neçə cəhət açıqlanır. Belə ki, bir tərəfdən ədalətin İlahi tərəzi olması bəyan edilir. Digər tərəfdən, ədalət hansısa mücərrəd bir ölçü vasitəsi deyil, məhz yaranmışlar üçün, insanlar arasında tətbiq olunması üçündür. Və ən əsas missiyası - haqqı yaşatmaqdır.

## Ədalət - universal anlayışdır

İnsanlar çox həssasdırlar bu anlayışa. İrqindən, dilindən, yaşından, cinsindən, dünyagörüşündən, planetin hansı yerində yaşamasından asılı olmayaraq, hər bir insanın daxilində bir ədalət hissi mövcuddur. O dərəcədə təbii hissdir ki, heç kəsə xüsusi izah etmək də lazım deyil nədir bu. Ədalət bir hissdir ki, buna görə insanlar hər şeyini qurban verməyə hazır olurlar.

Yaşadığımız dünyada görürük ki, dünyanın bir çox yerində Yaxın Şərqdəki qətliamın dayandırılması tələbilə onminlərlə insan etiraz aksiyası keçirir. Axı nə məcbur edir onları ki, minlərlə ingilis saatlarla Londonun mərkəzində, soyuq havada dayanır, etirazını bildirir? Yaxud minlərlə amerikalı Floridada bir araya gəlib, müharibə əleyhinə mövqe sərgiləyir? Məhz ədalət hissi onları idarə edir! İlk nəzərdə uzaq diyarda nə baş verir, bu insanlara nə dəxli? Amma yox! Vicdanın səsi, ədalətin səsi onları vadar edir ki, toparlansınlar, mövqe qoysunlar! Və bir qisim insan vicdanın səsini boğursa, özünü görməməzliyə vurusa, çoxları belə etmir. İnsanları çoxu harada olmasından asılı olmayaraq, ədalətsizliyə qarşı çıxır.

Bir nəzər yetirək bəşəriyyətin nailiyyətlərinə. İfrat-təfritlərlə işimiz yox, amma əksər hüquq və azadlıqların ana xətti - ədalətdir! Bax bu anlayışdır ki, Həzrət Adəmdən (ə) günümüzədək bütün mütərəqqi isanları ədalətsizliklə, nahaqqla barışmağa qoymur. İmam Hüseynimiz (ə) ədaləti bərpa etmək üçün qiyam etdi, hər bir şeyini qurban verdi!

Hətta ədalətlə olmayanlar da bu anlayışın mövcudluğunu inkar edə bilmir. Fitrətən hər bir insanda ədalət hissi var. Səs-küyə salıb, özünün bilməməzliyə vursa da, daxilində gözəl fərqinə varır ki, ədalət nədir və ədalətsizlik nədir.

## Ədalət - haqqa aparan vasitədir

Ədalətin haqqa aparan bir vasitə olması mövzusuna toxunaq. Beləliklə, ədalətsizlik haqqa apara bilməz və ədalət nahaqqa apara bilməz. Haqq deyilən bir şey varsa, o, ədalətsiz yaşadıla bilməz. Haqqa gedən yol ədalətdən keçir. Və bu, hər bir müstəvidə doğrudur: fərdi, ailə, kənd, şəhər, ölkə, dünya səviyyəsində.

**Həzrət Rəsulullahdan (s) nəql edirlər:** «Ədalət - qoruyucu bir sipərdir, qalxandır. Ədalət - daimi, davamlı bir cənnətdir».

İnsan ədaləti yaşam tərzi edərsə, təhlükələrdən, sapmaqlardan amanda qalar. Yolunu azmaz, zülm etməz, İlahi qəzəbə düçar olmaz ədaləti yaşadan insan - budur dinimizin buyuruşları. İnsanı fitnələrə getməyə, çaşqınlığa düşməyə qoymur ədalət hissi. Və ədalətlə yaşayan insanı ədalət əbədi, davamlı kamala yetişdirər.

## Təşnə insan üçün sudan daha şirin

İmam Cəfər Sadiqdən mövzu ilə bağlı bir hədis nəql edilir: «Ədalət - susuz insanın yetişdiyi sudan daha şirindir».

Dinimiz gözəl bir bəlağətlə ədalətin şirinliyini bizə anladır. Susuz olan bir insan üçün sudan şirin bir şey ola bilərmi?

Çox vaxt insan nemətin içində olanda, neməti dərk etmir. Nemətə kənardan baxanda isə, onun bütün çalarlarını, cəhətlərini sezir. Su insanın əlinin altında olanda ona bir o qədər də əhəmiyyət vermir. Amma bir neçə saat, gün susuz qaldıqda, varidatının hamısını bir içim suya verməyə hazırdır. Dinimiz buyurur ki, bax ədalət - bu hissdən də şirindir.

Həzrət Əlinin (ə) İmam Hüseynə (ə) etdiyi tövsiyələrə nəzər salaq. Buyurur ki: «Mən sənə tövsiyə edirəm ki, imkanlı durumunda da, imkansız durumunda da İlahi təqvaya riayət et E dost-düşmənlə ədalətlə rəftar et».

Hədisdə çox mühüm cəhətlər açıqlanır. Bir tərəfdən tövsiyə edilir ki, hər bir durumda insan təqva libasına bürünməlidir, gündəlik həyatında İlahi qayda-qanunu yaşatmalıdır. Heç bir vəziyyətində Allahı unutmamalıdır. Və mühüm bir məsələ də bəlli olur - nəinki dostlarla, hətta düşmənlərlə də münasibətdə ədalətsizliyə yol verməyə icazə vermir dinimiz.

Çoxları üçün bu gözlənilməz ola bilər. Fikirləşər ki, düşməndir də, buna qarşı nə ədalət?! Amma bunlar - dinimizin qırmızı xətləridir. Düşmənlə də rəftarda Allah Təalanın qoyduğu sərhədləri keçmək olmaz. Düşmənin də haqları var və dinimiz bunları tapdamağa izn vermir. Çünki bunları tapdamaqla, şəxs insan sifətini itirmiş olur, nəticədə hədəf bir yana qalır, insan öz ruhiyyəsini paslandırmış, çürütmüş olur.

## Xilaskarın ədalət proqramı

Bəhsin inkişafında Həzrət Peyğəmbərdən (s) bir mübarək hədisə diqqət edək: «Əgər dünyanın sonuna hətta bir gündən də çox qalmasa, Allah Təala Əhli-Beytimdən (ə) bir kişini göndərər ki, Yer üzünü ədalətlə doldursun».

Bütün İslam fiqh məktəbləri bu mətləbi təsdiqləyir və nəinki İslam məzhəbləri, digər əsas dinlər də Xilaskarın gəlişini xəbər vermişdir və bütün inanc əhli də o mübarək günün intizarındadır. Lakin intizar fəlsəfəsinə dair 2 nəzəriyyə mövcuddur. Birinci nəzəriyyəyə görə, insan elə sadəcə gözləmə mövqeyini tutmalıdır. Gözləməlidir ki, dünya zülm ilə, fəsad ilə dolduqdan sonra Xilaskar zühur etsin və dünyanı ədalətlə doldursun. Əlbəttə ki, bu nəzəriyyə insanı zəlalətə, bəşəriyyəti məhvə aparır.

Ancaq ikinci nəzəriyyə bildirir, intizar odur ki, insan maariflənsin, kamilləşsin və toplumu da kamilləşdirsin. Nəticədə bəşər o dərəcədə kamilləşir ki, İmamın (ə.f) zühuru üçün müvafiq zəmin yaranır. Və Mütəal Allahın məsləhət bildiyi vaxtda, İmam Mehdi Sahib-əz-Zəman (ə.f.) zühur edir, bəşərin kamilləşməyə doğru can atmasına, səyinə, hərəkatına rəhbərlik edir və dünyanı haqq-ədalətlə doldurur. Əlbəttə ki, bu nəzəriyyədə quruculuq, yaradıcılıq, gələcəyə nikbinlik var. Və bəşərin düşünən beyinləri bu nəzəriyyəni təsdiqləyir.

## Ədalət - fitri bir hissdir

Hər bir insanın daxilində ədalətin bərqərar olacağına bir inam var. Hamı fitrətən bilir ki, nə vaxtsa mütləq zülm cəzalanacaq və ədalət öz yerini tutacaq. Böyük mütəfəkkirlər bildirirlər ki, bu daxili inam əbəs deyil, bu, İlahi lütfün təzahürüdür, həqiqi inamın rüşeymidir. Əslində bu inam - ədalətin mütləq zəfər çalacağının bildirişidir. Amma bu, ayrıca böyük bir fəlsəfi bəhsdir.

Hər bir inanc əhlinin vəzifəsi - cəmiyyəti kamilləşdirməklə bağlı üzərinə düşən öhdəliyi yerinə yetirməkdir. Bu sahədə isə ən başlıcası - insanın öz daxilini təmizləməsi, zülmdən imtina etməsi, məzluma dəstək verməsi, ədaləti, haqqı yaşatmasıdır. Necə ki, buludlar arxasında gizlənən Günəş nə vaxtsa çıxır və aləmi işıqlandırır, eləcə də Əziz İmamımızın (ə.f.) mübarək zühuru ilə bəşəriyyət nicat tapacaqdır.

Sonda Həzrət Rəsulullahın (s) dünyadan köçməsinin tarixinə toxunaq. Hicrətin 11-ci ilində, səfər ayının 28-də baş verən bu kədərli hadisə, bütövlükdə ümmət üçün çox mürəkkəb və keşməkeşli bir şəraitdə baş vermişdir. Peyğəmbərimizin (s) vəfatından öncə və sonra cərəyan edən proseslərə nəzər salsaq, görərik ki, əslində bəşərin bugünkü problemlərinin kökü o zamanlara gedir.

Bu baxımdan, bugünkü müsəlmanın ən ümdə vəzifəsi - Peyğəmbərimizi (s) dünyaya tanıtdırmaqdır. Bizim də cəm olaraq əsas vəzifəmiz - əziz Rəsulu (s) insanlara tanıtmaq, sevdirməkdir. Əgər insanlar Rəsuli-Əkrəmi (s) tanısalar, o Həzrətin (s) cəzzabiyyəti 1400 il sonra da hər bir vicdanlı insanı öz orbitinə daxil edəcəkdir. O Həzrəti (s) tanıyan - mütləq sevəcəkdir, sevməyə bilməz. Kamillik təcəssümü, İlahi nemətin təzahürü olan əziz şəxsiyyəti tanıyan adam mütləq bütün qəlbi ilə ona bağlanacaqdır.

**Həzrət Peyğəmbərlə eyni gündə - səfər ayının 28-də, lakin hicrətin 49-cu ilində İmam Həsənin (ə) şəhadətə yetişən günüdür.** Əslində bu böyük bir faciənin göstəricisidir. Peyğəmbərimizin (s) İlahi rəhmətə qovuşmasından çox da böyük müddət keçməmişdir, amma görün vəziyyət nə yerə çatdı ki, Rəsulullahın (s) «cənnət cavanlarının seyyidi» adlandırıb, ümmətə onları sevib-qorumağı vəsiyyət etdiyi 2 əziz əmanəti - İmam Həsəni (ə), bir qədər sonra da İmam Hüseyni (ə) bu ümmət qoruya bilmədi, zalım düşmən onları şəhid etdi.

Səfər ayının sonuncu günündə 8-ci İmamımızın - İmam Rzanın (ə) şəhadəti günüdür. Abbasi xəlifəsi lənətlik Məmun, İmamı (ə) bir neçə dəfə sürgün etdikdən sonra, zəhərləyərək şəhadətə yetirmişdir. Zəmanə zalımlarının təqibləri nəticəsində İmam Rzanın (ə) 2 bacısı Azərbaycana pənah gətirmişdir. Hal-hazırda Nardaranda Rəhimə xanımın (s.ə), Bibi-Heybətdə Həkimə xanımın (s.ə) hərəmləri böyük ziyarətgahlardır.

Səfər ayından sonra gələn rəbbiəl-əvvəl adlanan növbəti qəməri ayı, bir neçə mühüm hadisə ilə əlamətdardır. Bu ayın əvvəli Peyğəmbərimizin (s) hicrət üçün Məkkədən çıxması ilə səciyyələnirsə, həmin ayın 12-də «vəhdət həftəsi» başlayır və ayın 17-də Böyük İslam Peyğəmbərinin (s) mübarək mövludu - dünyaya gəlməsi günüdür.

**Allahım, bizləri Həzrət Peyğəmbərə (s) layiq ümmət qərar ver!**

**Allahım, ümmətin problemlərini həll edilməsini, işğal olmuş torpaqların tezliklə azad olmasını, zülmün aradan getməsini, ədalətin bərqərar olmasını, İmam Mehdi Sahib-əz-Zamanınn (ə.z.) zühurunun tezləşməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 239 (6853) 17 noyabr 2017

# Ən gözəl binaların sərgisi

Yaponlar artıq dünyanın ən məşhur tikililərini görmək üçün ölkələrini tərk etməli olmayacaqlar. Belə ki, Kuniqava şəhərində Tobu Vörld Plazada dünyanın ən gözəl tikililərinin və maraqlı yerlərinin maketləri hazırlanıb sərgidə nümayiş etdirilir.

Sərgidə 21 ölkədə yerləşən 102 tarixi tikilinin ustalıqla hazırlanmış maketləri görənləri heyrətə gətirir. Dünyanın ən möhtəşəm binalarının yerləşdiyi sərgidə 140 minə qədər əllə hazırlanmış fiqur da göstərilir. Xüsusi hazırlanmış işıqlandırma sistemi isə gecələr maketlərin daha da füsunkar görünməsinə şərait yaradır. Sərgiyə əsasən daha əvvəllər xarici ölkələrə getməmiş insanlar maraq göstərir. Onlar bu heyrətamiz tikililəri görməyin onları səyahət etməyə daha da həvəsləndirdiyini söyləyirlər.

Şagirdləri bura sərgini gəzməyə gətirən müəllimlər isə bunun uşaqların tarix haqqında biliklərinin daha möhkəmlənməsinə imkan verdiyini düşünür. Sərgiyə gələnlərin ən böyük maraq göstərdiyi maket isə 2001-ci ildə terror aksiyası zamanı dağıdılan Dünya Ticarət Mərkəzidir. Təşkilatçılar artıq mövcud olmayan bu tikilinin miniatürünün qorunmasının çox mənalı olduğunu bildiriblər.

# Toy günü dağa çıxıb şəkil çəkdirdilər

Toy şəkilləri məsələsində çinli cütlük plankanı olduqca yüksək götürüb. Onlar şəkil çəkdirmək üçün dağı tərcih ediblər. Çətin bir səfər sonunda çəkilən şəkil üçün evli cütlük qədər qonaqları da çətin anlar yaşadı. Şəkillər üçün Çaya Dağını seçən cütlük ölkənin Henan bölgəsindəki dağa dırmaşmaq üçün böyük əziyyət sərf edib. Təxminən 100 metr yüksəkliyindəki dağın üzərində çəkdirdikləri şəkillər isə ölkədə böyük marağa səbəb olub. Çılğın cütlük uçurumun içinə basdırılmış metal şiş ucların üzərində dayandıqları halda, uzaqdan baxılarkən hardasa havada ayaq üstə dururmuş kimi



əhval yaratmağı bacarıb. Evlənmək üçün Çində marağa səbəb olan və böyük bir alış-veriş çılğınlığı ilə qutlanan 11noyabr Subaylar Gününü seçən cəsarətli cütlük bu günü ironiya məqsədilə seçdiklərini söyləyib.

Cazibədar mənzərəsi ilə olduqca məşhur və turistlərin maraq mərkəzi olan bu qayalıqlar sayəsində cütlük unudulmaz şəkillərə sahiblənib.

# Yeməyi tələsik yeyənlər şəkərə mübtəla ola bilər



"The İndependent" yazır ki, yeməyi tələsmədən, yavaş-yavaş yeyənlər piylənməyə daha az məruz qalır və metabolik sindroma tutulma riski ilə daha az üzləşirlər. Yeni elmi-tədqiqatın nəticələrinə görə yeməyi tələm-tələsik yemək qandakı şəkərin miqdarında dəyişkənlik yaradır ki, bu da orqanizmdə insulinə müqavimətin yaranmasına səbəb ola bilər. Bu hal qarın piylənməsi, qanda şəkərin yüksəkliyi, yüksək qan təzyiqi, triqliseridlərin yüksəkliyi kimi pozuntularla müşayiət olunur. 2017-ci ildə Amerika Ürək Assosiasiyasının Elmi Sessiyasına təqdim olunmuş hesabatda deyilir ki, yeməyi tələsmədən, yavaş-yavaş yemək sağlamlıq və gümrahlığın açarıdır. Alimlər aşkar etmişdilər ki, yeməyi tələsik yeyənlər metabolik sindromla üzləşmək şansı (11, 6 faiz) ən çox olanlardır. Normal sürətlə yeyənlərdə isə bu göstərici 6-5 faiz idi. Lakin metabolik sindrom riski ən az olanlar yeməyi yavaş yeyənlər idi (2-3 faiz).

Elmi araşdırmalar bunu da göstərib ki, yeməyi sürətlə yeyənlərdə artıq çəki, bel-qarın nahiyəsinin piylənməsi və qandakı şəkərin normadan artıqlığı kimi hallar daha tez-tez müşahidə olunur.

**Məqalədə deyilir ki, yeməyi yavaş yemək və ağızdakı qidanı şüurlu şəkildə yavaş-yavaş çeynəmək beyinə toxluq siqnalının daha tez çatmasına səbəb olur. Bu zaman yeməyi erkən başa vurmaq kimi vərdiş yaranır. Adamlar sürətlə yeyəndə nə zaman doyduqlarını bilmirlər və buna görə də qədərindən artıq yeyirlər.**




**QOÇ** - Maddi problemləriniz olsa da, astroloji göstəricilər bunun qanqaraçılığa səbəb olmayacağını vurğulayır. Əksinə, çoxdan görmədiyiniz yaxınlarınızla əlaqə yaradıb rahatlanacaqsınız.

**BUĞA** - Deyəsən iqlimin şıltaqlığı səhhətinizi zəiflətmək fikrindədir. "Hakim" olan Əqrəb sizin bürcə müxalif olsa da, məğlub olmaq sizə yaraşmaz. Qonaq getmək düşərli olsa da, başqa ünvanda gecələməyin.

**ƏKİZLƏR** - Hər bir ixtiyar öz əlinizdədir. Bu təqvimin axarı və nəticəsi atacağınız addımlardan asılı olacaq. Ulduzlar ağır işlərdən kənarlaşmağı məsləhət görür. Səfərə də çıxmaq olar.

**XƏRÇƏNG** - Ötən günlərlə müqayisədə rahatlığınız bir qədər artacaq. Müsahiblərinizlə maraqlı olmayan mövzulardan bəhs etməyin. Yeni əlaqələr yaratmaq fikrinizdə qətiyyətli olun.

**ŞİR** - Ulduzlar xəbər verir ki, ötən günlərdə bir neçə səhv qərar çıxarmısınız. Bu səbəbdən də çətinlikləriniz artıb. İxtiyarınızda olan bu günü həmin səhvləri aradan qaldırmağa yönəltməlisiniz.

**QIZ** - Daxili orqanlarınızda nasazlıq əmələ gələ bilər. Bu amili nəzərə alıb geyiminizə və qidanıza fikir verin. Qonaq getdiyiniz təqdirdə soyuq və spirtli içkilərdən uzaq olun.

**TƏRƏZİ** - Bu arada uzaq səfərə çıxmasanız, hansısa problemlə rastlaşmayacaqsınız. Çalışın ki, ürəyiniz istəyən adamların arasında olasınız. Sübuta yetirilməmiş səhvlərə görə kimisə qınamayın.

**ƏQRƏB** - Günün ilk yarısında bir qədər xoşagəlməz situasiyalarla rastlaşa bilərsiniz. Özünüzü təmkinli aparın. Sonrakı saatlarda sevdiyiniz adamların əhatəsində olun. Elektriklə ehtiyatlı davranın.

**OXATAN** - Qeyri-adi işlərə başlamaq, riskli addımlar atmaq, ciddi işlərə girişmək yolverilməzdir. Yaxşı olar ki, bu ərəfədə yalnız daxili sabitliyinizi qoruyasınız. Xətakar olmayın.

**OĞLAQ** - Bütün diqqətinizi istirahətə yönəltsəniz, daha xoş ovqat qazana bilərsiniz. Çünki bu təqvimdə fəaliyyətə ara verməyiniz, əvəzində qonaqlıq və səfərə getməyiniz məsləhət görülür.

**SUTÖKƏN** - Saat 12-yə qədərki vaxtı gərginlik içərisində başa vura bilərsiniz. İnsanlar müxtəlif xislətli olduqlarından təmkininizi artırmalısınız. Sonra isə proseslər xeyrinizə cərəyan edəcək.

**BALIQLAR** - İxtiyarınızda olan bu gündə ovqatınızın yüksək olacağına şübhə etməməlisiniz. Romantik görüş və qonaqlıqlar yolunuzu gözləyir. Axşama yaxın mövcud problemlərinizin həlli üçün dəstək alacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Dünyanın ən bahalı almazı satıldı



Dünyanın ən böyük alması İsveçrənin Cenevrə şəhərində təşkil olunan bir auksionda rekord qiymətə satılıb. 2016-cı ildə Anqolada tapılan dünyanın ən böyük almazı 25 milyon paunda alınıb. Təxminən 15 milyon avrodan başlayan start qiyməti ilə almaz boyunbağı auksiona telefonla qatılan və adının gizli saxlanmasını istəyən bir nəfər tərəfindən satın alınıb. Anqolada yerləşən Lulo mədənindəki 404 karatlık xam daşdan kəsilən almaz Hollandiyanın Antverp şəhərində almaz kəsmə mütəxəssislərindən ibarət 10 nəfərlik bir heyət tərəfindən analiz edilərək qüsursuz hala gətirilib. Almaz daha sonra isveçrəli bir cəvahiratçı tərəfindən hazırlanan asimmetrik bir boyunbağının mərkəzinə yerləşdirilib. Boyunbağının sol hissəsi zümrüdlərlə bəzədilərkən sağ tərəfi də kiçik almazlardan ibarətdir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.